www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 aprel 2016-cı il Bazar ertəsi № 70 (6391) Qiyməti 60 qəpik

**Xəbər**

## 5 yaşlı qızı ilə Bakını süpürən ananın acı hekayəsi

yazısı səh.14-də

**Gündəm**

## Azərbaycan şəhidlərini dəfn edir...



**Prezident İlham Əliyev:** "Biz böyük hərbi qələbə qazandıq..., erməni əsgəri ölmək istəmirsə torpaqlarımızdan rədd olsun!"

yazısı səh.3-də

*Rusiyalı politoloq:*

## "Ermənistan təcili şəkildə ən azı, 5 rayonu qaytarmalıdır..."

yazısı səh.11-də

## Mahmudovçular "Altes Group"un 10 mənzilini ələ keçirmək istəyiblər - ilginc detallar

yazısı səh.10-da

## Qarabağ veteranlarından döyüş çağırışları: "Müharibəyə başlayaq və torpaqlarımızı azad edək..."

yazısı səh.4-də

## İtkin düşən neftçilərdən daha birinin cəsədi tapıldı

yazısı səh.13-də

## Qəfil müharibənin siyasi və hərbi nəticələri - ekspertlərdən maraqlı rəylər...

yazısı səh.9-da

## Azərbaycan Universitetinin rəsmisi təhsil maxinasiyalarının detallarını "Yeni Müsavat"a açıqladı

yazısı səh.6-da

*İlahiyyatçı:*

## "Əfsus ki, ictimaiyyətdə hələ şəhidpərvərlik ruhiyyəsi formalaşmayıb..."

yazısı səh.4-də

## Saakaşvili Qarabağdakı döyüşlərdən yazdı: "Putinin təxribatına bənzəyir..."

yazısı səh.2-də

*İqtisadçı ekspert:*

## "Hərbi əməliyyatlar regional layihələrə təsir göstərə bilər"

yazısı səh.10-da

### İşğalçıya sarsıdıcı zərbə, ermənipərəst həmsədrlərə mesaj

# QARABAĞIN TALEYİNDƏ MÜHÜM DÖNƏM BAŞLAYIR... - QANLI SAVAŞIN PƏRDƏARXASI

Ordumuzun blits-zəfəri - iki kənd, iki strateji yüksəklik geri alındı; düşmən atəşkəs dövrünün ən böyük itkisini verdi - onlarla ölü...; vasitəçilərin dəyişmək istəmədiyi status-kvonu Azərbaycan əsgəri dəyişir; prezident ABŞ-da ikən Azərbaycana qarşı törədilən avantürada "rus izi", bumeranq effekti...




yazısı səh.5-də

## "Prezident Əliyev Obama ilə özəl görüşüb, böyük proseslər başlayır" - iddia

Azərbaycan rəhbərinin ABŞ-da keçirdiyi görüşlərin iki günlük Qarabağ savaşı ilə bağlantısı varmı? Vaşinqtondakı təmaslardan Rusiyanın qıcıqlanması mümkündür və bu, heç də Qarabağ məsələsində Ağ Evin təşəbbüsü ələ almaq istəməsindən yaranmayıb...

yazısı səh.8-də



*Fazil Mustafa:*

## "Fırtınalı dənizdə üzən gəmi durumundayıq"

yazısı səh.7-də



## Ədəbiyyatın susmayan vicdanı - Vidadi Babanlı ilə söhbət

yazısı səh.12-də



Qənirə Ataşova

## Telejurnalist Ərdoğana sual verərkən ağlamasından danışdı

yazısı səh.2-də

# 4 aprel 2016

YENİ MÜSAVAT
N 70 (6391) 4 aprel 2016



## Ermənistanla Belarus arasında Qarabağa görə gərginlik yaranıb

**Dünən Belarusun Ermənistandakı səfiri İqor Nazaruk Ermənistan Xarici İşlər Nazirliyinə dəvət edilib. APA-nın «Armenia Todaya»ə istinadən verdiyi məlumata görə, bu barədə Ermənistan Xarici İşlər Nazirliyi məlumat yayıb.**

İ. Nazarukla görüşən Ermənistan xarici işlər nazirinin müavini Şavarş Köçəryan Belarus Xarici İşlər Nazirliyinin Dağlıq Qarabağda baş verən hadisələrlə əlaqədar aprelin 2-də yaydığı bəyanatın Ermənistan tərəfdə böyük çaşqınlıqla qarşıladığını bildirib. Köçəryan Belarus XİN-in bu bəyanatının Ermənistan-Belarus münasibətlərinin ruhuna uyğun olmadığını, tərəflərin Kollektiv Təhlükəsizliyi Müqaviləsi Təşkilatı və digər strukturlarda götürdüyü öhdəliklərin əksinə olduğunu, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə tənzimlənməsinə zərbə vurduğunu, münaqişənin güc yolu ilə həllinə həvəs yaratdığını iddia edib.

Qeyd edək ki, Belarus XİN-nin bəyanatında Dağlıq Qarabağda ağır silahların tətbiqi ilə aktiv hərbi əməliyyatların yenidən başlamasından ciddi narahatlıq ifadə olunub. Bəyanatda Belarusun ATƏT-in Minsk Qrupunun üzvü kimi münaqişənin sülh yolu ilə ümumi prinsip və beynəlxalq hüquq normaları, hər şeydən əvvəl ölkələrin suverenliyi və ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri və ATƏT-in qərarlarına uyğun həllinə tərəfdar olduğu vurğulanıb. Bəyanatda ərazi bütövlüyü prinsipinin xüsusi vurğulanması Ermənistanı narazı salıb.



## Somalidə öldürülən azərbaycanlı müəllimə Göyçayda dəfn edildi

**Somalidə terroristlər tərəfindən öldürülən azərbaycanlı müəllimənin cənazəsi martın 3-də Göyçayda dəfn edilib. Musavat.com-un məlumatına görə, Somalinin paytaxtı Moqadişuda terrorçular tərəfindən öldürülən Kəmalə İsmayılovanın cənazəsi martın 2-də axşam saatlarında Türkiyədən Bakıya gətirilib. Martın 3-də səhər saatlarında isə yaşadığı Göyçay rayonunun Ləkçılpaq kəndinə göndərilib.**

Müəllimənin həyat yoldaşı Əflatun İsmayılov da cənazə ilə birlikdə kəndə gəlib. Əflatun İsmayılovun əmisi Arif İsmayılov dəfn mərasiminin martın 3-də saat 13 radələrində kənd qəbiristanlığında baş tutduğunu bildirdi.

A.İsmayılov vəfat edən müəllimənin iki uşağının isə Somalidə xəstəxanada müalicə aldığını dedi: "Uşaqlar xəstəxanadadır. Vəziyyətləri yaxşıdır. Heç birinin həyatı üçün təhlükə yoxdur".

Xatırladaq ki, martın 31-də Somalinin paytaxtı Moqadişu yaxınlığında mikroavtobusa edilən silahlı hücum nəticəsində 7 nəfər ölüb, 5 nəfər yaralanıb. Mikroavtobusda Somalidəki Türk Özəl Liseyinin əməkdaşları və şagirdlər olub. Ölənlərdən ikisi Türkiyə vətəndaşı, dördü isə Somali vətəndaşıdır.

Kəmalə ismaylovanın həyat yoldaşı Əflatun İsmayılov isə "Turkish Airlines" şirkətinin Somalidəki nümayəndəliyində və türk turizm şirkətində çalışır. K.İsmayılova əslən Mingəçevir şəhərindədir. Əflatun İsmayılov ailə həyatı qurduqdan bir müddət sonra xanımı ilə Türkiyəyə gedib. 1 il 6 ay əvvəl isə İsmayılovlar ailəsi Somaliyə köçüblər.

İsmayılovlar ailəsinin Fətullah Gülən "camaatı"nın açdığı məktəbdə könüllü olaraq müəllimə işləmək üçün Somaliyə getdiyi bildirilir.

❑ **İ.MURADOV**

# Telejurnalist Ərdoğana sual verərkən ağlamasından danışdı

## Qənirə Ataşova: "Jurnalist olaraq ağır xəbərlər təqdim etsək də, hisslərimiz ölməyib..."

Telejurnalist Qənirə Ataşova Türk-Amerikan Mədəniyyət Mərkəzinin açılışında Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğana Azərbaycan-Ermənistan cəbhə xəttindəki qarşıdurmalarda 12 Azərbaycan əsgərinin şəhid olması ilə bağlı sual verərkən ağlamasından danışıb.



Musavat.com "Anadolu Ajansı"na istinadən xəbər verir ki, telejurnalist erməni əsgərlərin azərbaycanlıların yaşadığı ərazilərə hücum etməsi ilə bağlı xəbərləri prezident gələn zaman öyrəndiyini ifadə edib: "Təxminən, 5 aydır ki, vətənimdən uzaqdayam. Ölkəmizin çətin gün yaşaması qürbətdə olan həmvətənlərim üçün çox ağırdır. Bu gün şəhidlərlə bağlı sual verərkən duyğulandım. Şübhəsiz ki, bir jurnalist olaraq hisslərimi bildirməli deyiləm. Amma nəzərə alın ki, mən bir anayam, qadınam, iki uşağım var. Şəhid düşən əsgərlər mənim də övladlarım sayılır. Vətənimin çətin günündə həmin 12 şəhidin analarının, bacılarının yerində özümü hiss etdim".

Q.Ataşova Azərbaycan mediasında şəhid xəbərlərinə çox həssas yaxınlaşıldığını, hətta Türkiyədəki şəhid xəbərləri də verilərkən həssaslıq göstərildiyini vurğulayıb: "Jurnalist olaraq ağır xəbərlər təqdim etsək də, hisslərimiz ölməyib. Xəbərə xəbər deyib, keçməməliyik. İnsan əvvəl öz insanlığını qorumalıdır. Vətən hər şeydən üstündür, vətənə xəyanət etmək olmaz. Nə olursa, olsun, vətən sənin canın, qanındır. Çünki vətənimiz olmasa, nə edərik? ABŞ kimi böyük dövlətlərdə vətəninə görə insanlara hörmət edirlər".

Prezident Ərdoğanın Azərbaycanda çox sevildiyini qeyd edən telejurnalist ona təşəkkür edib: "Şübhəsiz ki, prezident Ərdoğanın mənim hisslərimə bu qədər həssas yanaşacağını gözləmirdim. Ona təşəkkür edirəm. O, Azərbaycan qadınlarının, Azərbaycan analarının bu gün yaşadıqları hisslərə dəyər verdiyini dünyaya göstərdi".

Qeyd edək ki, prezident Ərdoğan çıxışı zamanı "Ermənistan-Azərbaycan sərhədində qarşıdurmalar ciddi mənada davam edir və bu qarşıdurmalarda hər iki tərəf də ciddi itki verir. Az əvvəl bir Azərbaycan televiziyasının müxbiri qarşımı kəsdi. Onun gözlərində gözyaşı gördüm. Görəsən, bizim ölkəmizdəki medianın gözlərində də bu gözyaşını görə bilərikmi?" - ifadələrini işlətmişdi.

❑ **Könül İbrahim**

## Bu gün yağış gözlənilir

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, aprelin 4-də Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir.**

Mülayim şimal-qərb küləyi günün ikinci yarısında cənub küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun gecə 4-7° isti, gündüz 9-13° isti olacağı ehtimalı var.

Azərbaycan rayonlarında arabir yağış yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 2-7° isti, gündüz 11-16° isti, dağlarda gecə 3-5° şaxta, gündüz 0-3° şaxta olacağı ehtimal var.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



## Saakaşvili Qarabağdakı döyüşlərdən yazdı: "Putinin təxribatına bənzəyir"

**Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili Azərbaycan-Ermənistan cəbhə xəttində yaşanan gərginliklə bağlı bəyanat yayıb. Facebook sosial şəbəkəsində yaydığı bəyanatda Odessa qubernatoru baş verənlərdə Rusiyanı ittiham edib:**

"Münaqişə indi nə Ermənistan, nə də Azərbaycan üçün sərfəlidir. Bu daha çox Putinin Azərbaycan və Türkiyəyə qarşı təxribatına bənzəyir. Çünki Moskva hadisələrin bu cür inkişafına çoxdan hazırlaşır. Rusiya çoxdan və intensiv olaraq hər iki tərəfi silahlandırır. Bu dövlət son illər təcili şəkildə sırf hərbi təyinat üçün Dağıstandan Gürcüstana, Azərbaycana ən tez şəkildə müdaxiləni təmin edəcək yol çəkdi".

Saakaşvilinin sözlərinə görə, belə bir situasiyada bütün liderlər ehtiyatlı davranmalı və dözümlülük nümayiş etdirməlidirlər.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, **Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

## Putin Şoyqu və Patruşevi Bakıya göndərir

**Rusiyanın müdafiə naziri Sergey Şoyqu və Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev yaxın vaxtlarda Bakıya gələcəklər. Virtualaz.org bildirir ki, bu barədə haqqin.az-ın Moskva bürosuna Rusiya Müdafiə Nazirliyindəki mənbə məlumat verib.**

Səfər çərçivəsində Qarabağ münaqişəsinin həlli, eləcə də ölkələrimiz arasında hərbi əməkdaşlıq məsələlərinin müzakirə olunacağı gözlənilir. Xatırladaq ki, aprelin əvvəlində Rusiyanın xarici işlər naziri Sergey Lavrov da Bakıya gələcək.

## Adəm Məmmədov da Vəkillər Kollegiyasından uzaqlaşdırıla bilərmi?

### Vəkil: "Bu barədə dəfələrlə xəbərdarlıq edilib"

**Məlum olduğu kimi, bu günlərdə tanınmış vəkil Müzəffər Baxış Vəkillər Kollegiyasından uzaqlaşdırıldı. Buna səbəb isə Ali Məhkəmənin hakimi Tatyana Qoldmanın quruma ünvanlandığı şikayət olub.**

Bu cür təhlükə ilə digər tanınmış vəkil Adəm Məmmədov da üz-üzə qalıb. Belə ki, müğənni Röya Ayxan vəkil barəsində Vəkillər Kollegiyasına müraciət edib. Müraciətə səbəb müğənninin onu təhqir edən Elnur Orucov adlı şəxslə arasında olan "razborka"nı gizli yolla çəkib, internetdə yayması ilə bağlıdır. Belə ki, vəkil olayın qanunsuz olduğunu əsas gətirərək daxili işlər naziri Ramil Usubov və Baş prokuror Zakir Qaralova müraciət edərək Röya Ayxanın qanunvericiliyi pozduğuna görə cəzalandırılmasını xahiş etmişdi.

Bəs görəsən Adəm Məmmədov da həmkarı kimi Vəkillər Kollegiyasından uzaqlaşdırıla bilərmi?

Vəkil məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlama verib. Adəm Məmmədov hər an kollegiyadan kənarlaşdırılmaq təhlükəsi olduğunu deyib: "Röya Ayxan şikayət verdi, kollegiya da məsələyə baxdı. Və belə təklif olundu ki, Röya xanım gedib məhkəməyə versin. Məni hamişə kollegiyadan uzaqlaşdırılmaq təhlükəsi gözləyir və dəfələrlə mənə bu barədə xəbərdarlıqlar olunur, diqqətimə çatdırırlar".

Adəm Məmmədov həmkarı Müzəffər Baxışın kollegiyadan uzaqlaşdırılmasına da münasibət bildirib: "Bu xəbəri çox pis qarşıladım. Çünki məbuatda səslendirdiyi hər hansı tənqidi fikrinə görə vəkilin kollegiyadan uzaqlaşdırılması doğrudan da düzgün mövqe deyil".

❑ **Xalidə GƏRAY**

**Aprelin 2-də gecə saatlarında erməni tərəfinin atəşkəsi pozması nəticəsində yaranan və iki gün sürən gərginlik Azərbaycan və dünya mətbuatının əsas gündəmi oldu. Son eskalasiya ilə bağlı prezident İlham Əliyev aprelin 2-də keçirilən Təhlükəsizlik Şurasının iclasındakı çıxışına bir dəqiqəlik sükutla başlayaraq, Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribat törətdiyini bildirib.**



# Azərbaycan şəhidlərini dəfn edir

## Düşmən sarsıdıcı zərbə aldı; Ermənistan şokda...; **prezident İlham Əliyev:** "Biz böyük hərbi qələbə qazandıq..."

Çıxışın mətnini təqdim edirik:

"Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törətmişdir. Təmas xəttində yerləşən mövqelərimizə hücum çəkmişdir. Təmas xəttinə yaxın yerlərdə yerləşən yaşayış məntəqələrini atəşə tutmuşdur. Bu silahlı təxribat nəticəsində itkilərimiz olmuşdur. Hərbiçilərimiz və mülki şəxslər həlak olmuşlar. Allah rəhmət eləsin. Allah onların qohumlarına, yaxınlarına səbir versin. Yaralananlara Allahdan şəfa diləyirəm. Göstəriş verirəm ki, Nazirlər Kabineti həlak olanların ailələrinə maddi yardım göstərmək üçün təkliflər irəli sürsün və Müdafiə Nazirliyi döyüş əməliyyatlarında fərqlənmiş, Vətən uğrunda qəhrəmancasına döyüşmüş insanları təltif etmək üçün mənə təkliflər təqdim etsin.

Bu, Ermənistanın ölkəmizə qarşı növbəti silahlı təxribatıdır. Birinci dəfə deyil ki, Ermənistan bu cür təxribatlara əl atır. Bir neçə gün bundan əvvəl Azərbaycan-Ermənistan sərhədində, Qazax istiqamətində də oxşar təxribat törədilmişdir. Bizim mövqelərimizə Ermənistanın təxribatçı qrupları hücum çəkmişlər. Bu hücum nəticəsində iki hərbçimiz həlak olmuşdur. Düşmənə layiqli cavab verilmişdir. Düşmən yerinə oturduldu.

Bugünkü təxribat da Ermənistanın Azərbaycana qarşı məkrli siyasətinin təzahürüdür. Bu gün erməni təxribatı Azərbaycan Ordusu tərəfindən layiqincə cavablandırıldı. Düşmənə çox böyük zərbələr endirildi. Düşmən böyük itkilər verdi. Müdafiə naziri bu gün bu məsələ ilə bağlı daha ətraflı məlumat verəcək. Deyə bilərəm ki, düşmənə sarsıdıcı zərbə vuruldu.

Qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər. Eyni zamanda daha əlverişli hərbi mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi. Aparılan hərbi əməliyyat nəticəsində, - onu da qeyd etmək istəyirəm ki, bu əməliyyat təxribata cavab olaraq aparılmışdır. Biz böyük hərbi qələbəni qazandıq. Bu münasibətlə Ordumuzu, bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Əminəm ki, bundan sonra da düşmənin bütün təxribatları cavabsız qalmayacaq. Düşmənə bundan sonra da layiqli cavab veriləcək. Azərbaycan Ordusu buna qadirdir. Azərbaycan övladları öz doğma torpağını müdafiə edirlər, Vətən uğrunda vuruşurlar, şəhid olurlar. Bütün şəhidlərimizin xatirəsi ürəyimizdə yaşayır və əbədi yaşayacaq.

Ermənistanın bu hərəkətlərinin də səbəbi mənim üçün sirr deyil. Mən dəfələrlə həm Azərbaycan ictimaiyyətinə, həm bu məsələ ilə bağlı olan vasitəçilərə, vasitəçilik edən ölkələrin başçılarına öz fikirlərimi bildirmişdim. Ermənistan sülh istəmir. Ermənistan işğal edilmiş torpaqlardan çəkilmək istəmir və bütün səyləri ona yönəldib ki, status-kvonu maksimum saxlaya bilsin. Bu sözlərin kifayət qədər çox sübutları var. Danışıqlar prosesi iyirmi ildən artıqdır ki, aparılır. Bu iyirmi il ərzində həlledici məqamlarda Ermənistan həmişə təxribatlara əl atırdı. Təmas xəttində Ermənistan tərəfindən daim gərginlik yaradılır.












Bir neçə gün Azərbaycan Ordusu özünü çox təmkinlə aparırdı. Mən də göstəriş vermişdim ki, biz təxribatlara uymayaq. Ancaq ondan sonra düşmən daha da azğınlaşmışdır, bizim mövqelərimizə hücum çəkmişdir, hərbi helikopterləri işə salmışdır. Azərbaycan Ordusu helikopterin birini məhv etmişdir. Bu, Ermənistana lazım idi. Onların təxribatı idi. Lazım idi desinlər ki, Azərbaycan atəşkəsi pozur. Azərbaycan burada özünü aqressiv aparır və.s.

Bugünkü təxribat da, bax, bu mənbədən gələn təxribatdır. Yenə də bizim mövqelərimizə hücum çəkirlər. Bizim əsgərlərimiz, zabitlərimiz həlak olur. Ondan sonra Azərbaycan Ordusu onların başını əzir və indi dünyaya hay-haray çəkirlər ki, Azərbaycan atəşkəsi pozur. Biz atəşkəsi pozmamışıq, biz sadəcə olaraq təxribata layiqli cavab vermişik. Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq. Ermənistanın əsas məqsədi status-kvonun dəyişməz qalmasıdır. Əfsuslar olsun ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının çoxsaylı bəyanatları Ermənistan rəhbərliyinə heç bir təsir göstərmir. Bu bəyanatlar ondan ibarətdir ki, ABŞ, Rusiya və Fransa dövlətlərinin başçıları dəfələrlə bildirmişlər: status-kvo qəbuledilməzdir.

İşğalçılar işğal edilmiş torpaqlardan çıxmalıdır. Ermənistan rəhbərliyi bunu istəmir. Əsas məsələ bundan ibarətdir. Onlar istəyirlər ki, bu, sonu olmayan prosesə çevrilsin. İstəyirlər ki, danışıqlar bundan sonra da iyirmi il davam etsin. Onlar özlərini danışıqlar masası arxasında qeyri-səmimi aparırlar... Bizim heç bir günahımız yoxdur. Biz sadəcə olaraq bu təxribata cavab vermişik. Düz də etmişik. Bizə qarşı yenə təxribat törədilərsə onlar yenə də öz cəzalarını alacaqlar. Bu, bir. İkincisi, biz öz torpağımızda vuruşuruq. Biz Ermənistan torpağını işğal etməmişik. Biz öz torpağımızda vuruşuruq. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm.

Bu yaxınlarda Rusiya prezidenti və Rusiyanın xarici işlər naziri digər həmsədrlərlə birlikdə müəyyən təkliflər irəli sürmüşlər. Biz bunu alqışlayırıq. Həm görüş əsnasında və rəsmi bəyanatlarda Azərbaycanın ərazi bütövlüyü ilə bağlı öz fikirlərini bildirmişlər".

***

Qeyd edək ki, son döyüşlərdə 12 Azərbaycan hərbiçisi şəhid olub. Mülki əhalidən də həyatını itirənlər var: artilleriya atəşləri nəticəsində 3 sakin həlak olub, biri 13 yaşlı uşaq olmaqla 5 nəfər yaralanıb, müxtəlif yaşayış məntəqələrində 10-dan çox ev dağıdılıb. Düşmənə heç vaxt unuda bilməyəcəyi amansız zərbə vuruldu. Müdafiə Nazirliyinin rəsmi açıqlamasında düşmənin 10-a yaxın tankının məhv edildiyi, canlı qüvvə sarıdan çoxsaylı itkilər verdiyi qeyd olundu. Döyüşlərin getdiyi vaxt ermənilərin planetaarmenia.ru saytının sensasion etirafı yayıldı. Sayt əməliyyatlarda 100-dən çox erməni əsgərinin həlak olduğunu, 6 tankın sıradan çıxarıldığını, 12-15 artilleriya sisteminin məhv edildiyini açıqlayıb. Ermənistan prezidenti Serj Sərkisyan itkilərin sayını azaltmağa çalışsa da, 18 nəfər hərbiçi itirdiklərini etiraf etməyə məcbur oldu.

Əməliyyat vaxtı erməni tərəfi məkrli niyyətlərindən əl çəkmədilər. İnternet saytlarında guya Azərbaycan hərbiçilərinin olduğu cəsədlərin fotolarını yaydılar. Amma onların yalanları qısa zamanda ifşa olundu. Belə ki, cəsədlər yay geyimində idi. Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Vaqif Dərgahlı bununla bağlı mətbuata açıqlamasında deyib: "Ermənilər öz itkilərini pərdələmək üçün hər növ saxtakarlığa əl atırlar. Ermənilərin internet saytlarında yaydığı həlak olmuş Azərbaycan əsgərlərinin meyitlərinin və vurulmuş pilotsuz uçuş aparatının görüntüsü saxtadır. Videoda göstərilən həlak olmuş əsgərlər yay geyimindədir. Hazırda Azərbaycan Ordusunun şəxsi heyəti qış geyimindədir".

Düşmən tərəfin iki günlük döyüşlərdə darmadağın olduğu dünyanın əsas ölkələrinin əməliyyatlar zamanı göstərdikləri mövqelərdən açıq şəkildə göründü. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı daim ikili mövqe sərgiləyən ölkələr bu dəfə konkret mövqe qoydular - özü də əməliyyatları dayandırmaqla bağlı. Səbəb də üstünlüyün açıq şəkildə biz tərəfdə olması idi. Əsas canfəşanlığı Rusiya göstərdi. Rusiya rəhbərliyindən kimsə qalmadı, bu əməliyyatlarla bağlı mövqe bildirməsin. Rus telekanalları və saytları susmadılar. Döyüşlər gedən vaxt açıq şəkildə ölkəmiz əleyhinə yazılar, ekspert şərhləri dərc olundu.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan azərbaycanlı həmkarına başsağlığı verərək, qardaş ölkənin dəstəyini ifadə edib. O, türk xalqının daim Azərbaycanın yanında olduğunu qeyd edib. Türkiyənin müdafiə naziri İsmət Yılmaz azərbaycanlı həmkarı ilə telefon danışığında Azərbaycan tərəfinin haqlı olduğunu bəyan edib. Türkiyəli generallar İsmayıl Haqqı Pekin, Engin Alan və Əhməd Yavuz da Azərbaycan xalqına başsağlığı verərək, ermənilərin gələcəkdə bu cür təxribatlarının davamlı olacaqlarını istisna etməyiblər.

Ermənistanı dövlət kimi tanımayan Pakistan da Azərbaycana ən böyük dəstəyini nümayiş etdirdi. Pakistan Müdafiə Nazirliyinin Facebook-dakı rəsmi səhifəsində bu sözlər yer aldı: "Pakistan xalqı Ermənistanla münaqişədə Azərbaycanı dəstəkləyir, Dağlıq Qarabağ regionu Azərbaycana məxsusdur".

Türkmənistan və Suriya türkmənlərindən də Azərbaycana dəstək gəldi. Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov dövlət televiziyasına açıqlamasında "Azərbaycan istərsə, dəstəyə hazırıq" deyib. Suriya türkmənləri də Azərbaycanın çətin anında yanında olduğunu nümayiş ediblər.

ABŞ-ın dövlət katibi Con Kerri isə Qarabağda atəşkəsin pozulmasını pisləyən bəyanatla çıxış edib. ATƏT-in baş katibi Lamberto Zanyer Azərbaycan və erməni tərəfini əməliyyatları dayandırmaq və danışıq masasına qayıtmaqla bağlı fikirlər səsləndirib. Avropa Şurasının baş katibi Turbyern Yaqland tərəfləri qan tökülməsini dayandırmağa çağırıb. BMT-nin baş katibi Pan Gi Mun cərəyan edən proseslərdən narahatlığını dilə gətirərək, tərəfləri hərbi əməliyyatlara son qoymağa çağırıb. Fransa prezidenti Fransua Olland isə bildirib ki, Dağlıq Qarabağ münaqişəsini yalnız sülh yolu ilə həll etmək mümkündür. İran tərəfi də məsələyə münasibət bildirərək narahatlıq ifadə edib.

***

Gedən döyüşlərdə həyatını itirən hərbiçilərimizin ötən gün dəfn mərasimləri keçirilib. Cəbrayıldan olan 22 yaşlı hərbçi Ruhin Əsgər oğlu Qəhrəmanovun nəşi qəsəbəyə gətirilib. Cənazə 3 saylı qəsəbənin qəbiristanlığında dəfn olunub. Füzuli istiqamətində şəhid olan Azərbaycan ordusunun giziri Nicat Bəhruz oğlu İsgəndərov Tərtər şəhər qəbiristanlığında torpağa tapşırılıb.

Həyatını itirən 20 yaşlı Orxan Əliyev də dəfn olunub. Şəhid doğulduğu Qazax rayonun Aslanbəyli kəndində torpağa tapşırılıb. 1994-cü il təvəllüdlü şəhid Kaçayev Samir Ziyəddin oğlu aprelin 3-də Şamaxı rayonunda dəfn edilib. Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı səsləndirilib, şəhid əsgər yaylım atəşləri altında son mənzilə yola salınıb.

Aprelin 2-nə keçən gecə təmas xəttində düşmənlə gedən döyüşdə həlak olan Azərbaycan Ordusunun əsgəri 19 yaşlı Rəvan Nurayev də dəfn olunub. R. Nurayev doğulduğu Zaqatala rayonunun Muxax kəndində torpağa tapşırılıb.

Allah şəhidlərimizə rəhmət eləsin!

❑ **Cavanşir ABBASLI**



# Bir günə yarılan Qarabağ səddi

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Günün birində Qarabağda müharibənin alovlanacağını hamı gözləyirdi. Rusiya ekspertləri son yarım ildə az qala hər gün böyük savaşın başlayacağı barədə proqnozlar verirdilər. Bu, təkcə proqnoz deyildi, həm də informasiya, üstəlik, tərəflərə təhdid idi. Xüsusilə də gömrük boyunduruğuna qoşulmaqdan imtina edən Azərbaycana ünvanlanmışdı bu təhdid, Putinin "danışan dilləri" tərəfindən...**

Moskva Azərbaycandan ümidini üzməmişdi, bir-birinin ardınca Rusiyadan emissarlar gəldi, "7 rayon nağılı" dövriyyəyə buraxıldı - guya ki, Kreml erməniləri ətraf rayonlardan çıxmağa vadar edəcək - burdakı "beşinci kolon"u hərəkətə keçirmək istədilər, "talış kartı"nı işə salmağa çalışdılar, hətta orden-medallarla Azərbaycan hakimiyyətini dilə tutmağa, ələ almağa çalışdılar, ancaq alınmadı.

Moskva günün birində ayıldı ki, Azərbaycan paytaxtı Cənub Qaz Dəhlizi kimi nəhəng layihənin, "21-ci əsrin kontraktı"nın gerçəkləşdirilməsi prosesində ev sahibi statusunda çıxış edir, Avropanın nəhəng korporasiyaları Bakıya toplaşıb, iri Qərb dövlətlərindən təbriklər gəlir. Bu halda Rusiyanın üzü dönməliydi. Bakı-Tiflis-Ceyhan layihəsinə münasibəti xatırlayın, işğal, çevriliş cəhdi, separatizmə dəstək...

Əslində atəşkəsin belə şiddətli şəkildə pozulması heç Ermənistana da sərf etmirdi, ağır dönəmini yaşayan işğalçı ölkə Rusiyadan kreditlə 200 milyonluq silah-sursat almışdı, onu niyə havaya sovursun ki? Məsələ burasındadır ki, Kreml savaşı alovlandırmaqla əslində Ermənistanı cəzalandırdı, düşmən sarsıldı, böyük itkilər verdi. Ermənilər özlər də dünəndən Rusiyanın günahkar olduğunu deyir. Əgər Qarabağda yaralılar üçün dərman belə yoxdursa, deməli, heç Ermənistan da bu vəziyyətə hazır deyilmiş. Bir əsr əvvəlki kimi yenə ilk atan "kazaklar" oldu - Gümrüdəki hərbi bazanın əsgərləri. Putin Sərkisyanın Qərblə hansısa formada təmasda olmasını istəmir, bir gün Rusiyanı satar, əldən çıxar - deyə.

Qərbdə də proseslərin nəzarətdən çıxacağını yaxşı bilirdilər. Elə son toqquşmalardan iki gün əvvəl ABŞ kəşfiyyatının "kölgəsi" adlandırılan "Stratfor" mərkəzi Qarabağ cəbhəsində ağır artilleriyanın iştirakı ilə qarşılıqlı toqquşmaların olacağı barədə məlumat yaymışdı. Proqnoz cəmi 48 saata çin çıxdı...

Şübhəsiz ki, amerikanlarda da kəşfiyyat məlumatları var idi. Cəmi bir həftə əvvəl təmas xəttinə yaxın bölgələrdə yaşayan erməni mülki əhalinin Şuşaya köçürüldüyü barədə xəbərlər yayılmışdı. Separatçı rejim faktiki Rusiyadan təlimatlar alır. Deməli, mülki əhalinin köçürülməsinin səbəbi böyük əməliyyat hazırlığı imiş...

Düşmənə dərs verdik. Könül istərdi ki, Azərbaycan ordusu bayrağımızı Xankəndinə sancana qədər irəliləsin. Ancaq atəşkəsin birtərəfli qaydada dayandırılması barədə əmr verilib. Hər halda Azərbaycan revanşdadır, ordumuz sübut etdi ki, düşməni darmadağın etməyə qadirdir, bir neçə saatda azad olunan mövqelər də bunu sübut etdi. Düşmənin "keçilməz" saydığı təmas xətti yarıldı.

Bəlkə şimal qonşumuz belə nəticəni gözləmirdi. Azərbaycanın qəhrəman ordusu cəmi bir neçə saata mühüm yüksəklikləri ələ keçirdi. Bu mənada ssenarini kimin yazmasından asılı olmayaraq, bir günlük Qarabağ müharibəsinin çox böyük nəticələri var. Dünya anladı ki, Qarabağ münaqişəsi donmuş deyil, hər zaman alovlana bilər. Beynəlxalq təşkilatlar və böyük dövlətlər Azərbaycanla zarafat etməyin yanlış olduğunu başa düşdülər.

2 aprel savaşından, şəhidlər bahasına əldə etdiyimiz uğurlardan sonra bir daha əmin olduq ki, Qarabağı yalnız döyüşüb qaytara bilərik. O torpaqları bizə nə dünya birliyi qaytaracaq, nə də bu gün itirdiyi yüksəkliklər uğrunda həyasızcasına səfərbər olunan ermənilər. Həmsədrlər isə "üzü qara gəlin" statusunu qazandıqları üçün Bakıya gəlməyə də üz qoymayıblar.

Ölkəmizdə döyüş ruhunun ölmədiyi, müharibə xofunun olmadığı, xalqımızın hər zaman Qarabağ uğrunda savaşa hazır olduğunu özümüz də gördük, dünya da. Minlərlə adam könüllü cəbhəyə getmək üçün müraciət etdi, sevindi, qürurlandı.

Bu bir gündə dostlarımızı da bir daha tanıdıq: Türkiyə, Pakistan "Azərbaycanın yanındayıq" dedi, düşmənlərimizi də gördük... Hələ Arazın o tayından Qarabağda döyüşmək istəyənlər də sərhədə toplaşdı.

Düşmən və onun havadarları bizə özümüzü tanımaq, gücümüzü bilmək üçün fürsət verdi həm də. İqtidarlı-müxalifətli hamı "Qarabağ" dedi. Bu yol İnşallah, bizi qələbələrə aparacaq.

# Qarabağ veteranlarından döyüş çağırışları

**Aprelin 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu mövqelərimiz, yaşayış məntəqələrimiz düşmən tərəfindən intensiv atəşə məruz qalıb.**

Rəsmi məlumata görə, ermənı təxribatının qarşısını alan zaman ordumuz 12 şəhid versə də, düşmən tərəfinin itkiləri daha böyük olub. Bu faktı ermənilərin özləri də təsdiqləyiblər. Belə ki, ermənilərin planetaarmenia.ru saytı yazır ki, əməliyyat nəticəsində 100-dən çox erməni öldürülüb.

Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumata görə, Azərbaycan ordusu tərəfindən Talış kəndi ətrafındakı yüksəkliklər, eləcə də Seysulan məntəqəsi düşmən qüvvələrindən tam təmizlənib. Düşmənin 6 tankı, 15-dək artilleriya qurğusu və xeyli sayda möhkəmləndirilmiş mühəndis qurğusu məhv edilib.

Düşmənin təxribatı aprelin 3-nə keçən gecə də davam edib. Rəsmi məlumata görə, Azərbaycan tərəfinin razılığa əməl etməsindən istifadə edən qarşı tərəf Ermənistandan işğal altında olan ərazilərə əlavə hərbi qüvvə cəmləşdirməyə başlayıb. Düşmən işğaldan azad edilən mövqelərin, ərazilərin geri qaytarılmasına cəhd göstərib və nəticədə 10-a yaxın tank, həmçinin canlı qüvvə sarıdan xeyli itki verib.

Ordumuzun irəliləməsi cəmiyyətimiz tərəfindən də sevinclə qarşılanıb və Qarabağla bağlı bəzi təşkilat nümayəndələri cəbhə xəttinə yollanıblar.

Onlar arasında Qarabağ Azadlıq Təşkilatının (QAT) üzvlərini qeyd edə bilərik. Təşkilatdan musavat.com-a verilən məlumata görə, QAT sədri Akif Nağı, təşkilatın idarə heyətinin üzvləri - Şaiq Süleymanov, Nəsib Cəfərov və Tahir Bayramov cəbhə bölgəsinə yola düşüblər.

## Etimad Əsədov: "Çox istəyirəm ki, müharibəyə başlayaq və torpaqlarımızı azad edək"



QAT rəhbərliyinin bu səfərdə məqsədi Tərtər, Ağdam və digər döyüşlər gedən istiqamətlərdə yerli əhali ilə görüşmək, insanlara mənəvi dəstək verməkdir. Onlar həmçinin istəyirlər ki, ordunun tələblərinə uyğun olaraq könüllü gücləri çatan işlərlə köməkliklərini göstərsinlər.

QAT sədri Akif Nağı bununla bağlı deyib: "Döyüşlərin getdiyi bir vaxtda cəbhə bölgəsində olmaq bizim mənəvi borcumuzdur. Biz həmişə müharibənin başlamasını istəmişik, indi hər kəs qələbə naminə əlindən gələn köməyi etməlidir. Biz ordumuzun gücünə və qalib gələcəyinə inanırıq".

"Qarabağ Qaziləri" İctimai Birliyinin sədri Etimad Əsədov da "Yeni Müsavat" a cəbhədə son günlər baş verənlərlə bağlı fikrini bildirərək, hər an döyüşə getməyə hazır olduqlarını bildirib: "Hazırda cəbhədə atışma baş verən rayonlara bizim qazilərimiz də gediblər. Eyni zamanda 2 aprel tarixində biz də daxil olmaqla bir sıra təşkilatlar toplanaraq müzakirələr apardıq. Qərara gəldik ki, biz də gərginliyin olduğu bölgələrə səfər edək. Ordumuzun irəliləməsi döyüşçü, birinci Qarabağ müharibəsinin iştirakçısı kimi bizi çox sevindirir. Vətənimin 20 faiz torpağı işğaldadırsa, bədənimin də 20 faizi yoxdur. Ona görə də mən daha çox dərd çəkirəm. Vətən itkisini öz canımda gəzdirirəm. Çox istəyirəm ki, müharibəyə başlayaq və torpaqlarımızı azad edək. Azərbaycan qalib ölkə olsun. Azərbaycan ordusu qalib ordu olsun. Vətəndaşlarımız qürur duysunlar ki, nəhayət biz torpaqlarımızdan kafir düşməni rədd etdik və ərazi bütövlüyümüz bərpa olundu. Bu hislər mənim daxilimdən gələn duyğulardır. Bunu yaşamaq istəyirəm. Düşünürəm ki, hər bir dövlətin vətəndaşları ərazi bütövlükləri, müstəqillikləri üçün doğulublar. Nəzərə alaq ki, başqa ölkələrdən fərqli olaraq, biz vətənimizi "Ana vətən" adlandırıb, torpağımızı anamızla müqayisə edirik. Deməli, bu çox müqəddəs bir anlamdır. Bu baxımdan, torpağımızın övladları şəhid olsalar da, öz vətənlərini qorumalıdırlar. Mən razıyam ki, o şəhidlərdən biri qardaşım, bacım oğlu olsun. Bizi yaxın buraxarlarsa mənim özüm şəhid olum, yetər ki, torpaqlarımız azad olsun. Kimlərəsə arxalanan erməni kafirləri torpağımda at oynatmasınlar. Bunun üçün hər şeyə hazırıq".

Onu da qeyd edək ki, 2 aprel tarixində bir sıra vətənpərvər təşkilatlar cəbhədə baş verənləri müzakirə ediblər. Təşkilatların yaydıqları birgə bəyanatda bildirilir: "Baş verən hadisələrin əsas günahkarları işğalçı Ermənistan və onun havadarlarıdır. Dəfələrlə atəşkəsi pozan, dinc insanlarımızı atəşə tutaraq qətlə yetirən ermənilər bir gün cavablarını almalıydılar. Və aldılar! Biz hər zaman olduğu kimi, yenə də ordumuzun, Azərbaycan dövlətinin, Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandanı İlham Əliyevin yanındayıq! Torpaqlarımızın azad olunması yolunda hər bir əmrə hazırıq. Cənab Ali Baş Komandanımızın əmrini gözləyirik!

Allah şəhidlərimizə rəhmət eləsin! Ən azı Xankəndində görüşənədək!"

❑ Əli RAİS

# Şəhidlərimiz üçün fətvalar veriləcəkmi?

## İlahiyyatçı: "İctimaiyyətdə hələ şəhidpərvərlik ruhiyyəsi formalaşmayıb..."



Bəhruz Camal

**Məlum olduğu kimi, aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq təmas xəttində vəziyyətin gərginləşməsi nəticəsində Azərbaycanın 12 hərbiçisi şəhid olub. Şəhidlərin əksəriyyəti artıq dəfn olunub.**

Qeyd edək ki, qardaş Türkiyə dövlətində məscidlərdə şəhidlərin ruhlarına dualar oxunub, onlara anım keçirmək adət halını alıb. Bəs görəsən bizdə vəziyyət necədir? Vətən uğrunda canlarını fəda edən şəhidlərimiz üçün məscidlərdə fətvalar verilib, dualar oxunurmu?

İlahiyyatçı Bəhruz Camal məsələ ilə bağlı "Yeni Müsavat"a danışıb. İlahiyyatçı ölkə ictimaiyyətində hələ şəhidpərvərlik ruhiyyəsinin formalaşmadığını deyib: "Adətən 20 Yanvar, 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü və bir bu kimi günlərdə müəyyən məscidlərdə şəhidlərimiz üçün anım mərasimləri keçirilirdi. Təəssüf doğuran bir haldır, bir gün ərzində 12 şəhidimiz oldu. 12 vətən övladımız vətənə xidməti borclarını yerinə yetirərkən öz canlarını fəda etdilər. Lakin bəzi televiziya və radiolarda çal-çağır proqramlarının, sanki "aclıq olsun, kef olsun" məsələsinin hökm sürdüyünün şahidi olduq. Sanki ictimaiyyətdə hələ şəhidpərvərlik ruhiyyəsi formalaşmayıb. Budur adamı üzən. Bir çox məscidlərdə həmişə şəhidlərimiz üçün dualar oxunub çox güman ki, bu günlərdə də bu tədbirlər keçiriləcək.

Amma əslində bu məsələ məscid səviyyəsindən kənara çıxmalıdır. Çünki o şəhidlər təkcə məscidlərin deyil, xalqındır. Küçədə, nəqliyyatda, bir sözlə, ictimaiyyətdə heç olmasa, bir-iki gün bu anım qeyd olunmalıdır. Doğrudur, bəziləri buna qınaq kimi baxır ki, bizim qəmlənməyimiz düşməni sevindirər və sairə. Bunlar yanlış təfəkkürdür. Biz qəmgin deyilik, sadəcə, şəhidlərimizi anır, onları yad edirik. Bununla da onların ailələrinə bir növ dəstək olun sanki nümayiş etdiririk ki, sizin qəminizə şərikik, ölən təkcə sizin övladınız deyil, bizim də bir parçamızdır. Bu ruhiyyə təəssüflər olsun ki, cəmiyyətimizdə yoxdur. Bu ruhiyyəni cəmiyyətdə formalaşdırmaq üçün hansı vasitələr gərəkirsə, onu axtarıb tapmaq lazımdır ki, Azərbaycan xalqı da şəhidlərdən olsun. Bu bizim potensialımızda var, çünki 20 yanvarda və ya 93-cü ilə qədər olan müharibələrdə xalq bunu özündə göstərə bilib. Bu gün zaman-zaman informasiya blokadasından çıxan insanlarımız müxtəlif informasiyaların təzyiqlərinə məruz qalaraq artıq dəyərlərindən sanki uzaqlaşdırılır".

İlahiyyatçı məsələnin qanuniləşdirilməsinin heç bir əhəmiyyət kəsb etməyəcəyini bildirib: "Ümumiyyətlə, bu məsələlərin hamısı vicdan məsələdir. Onu hansısa qanun və ya inzibati tədbirlər vasitəsi ilə həyata keçirməyin o qədər də əhəmiyyəti olmayacaq. Elə işlər görmək lazımdır ki, insanlar könüllü surətdə şəhidlərini ansın".

Qeyd edək ki, "Heydər" Məscid Kompleksi İdarəsinin sədri Hacı Sabir Həsənli "Report"a açıqlamasında bildirib ki, adı çəkilən məsciddə qılınan namazlarda şəhid olan Azərbaycan hərbçilərinin ruhuna dualar edilir, uca Allahdan onlara rəhmət diləni: "Məsciddə şəhər sakinlərinin iştirakı ilə qılınan bütün namazlarda ordumuzun şəhid olan əsgərləri yad edir, onlara Allahdan rəhmət diləyirik. Azərbaycan ordusunun zəfər qazanması üçün dualar edilir. Vətənin qorunması, şəhidlik zirvəsi ilə bağlı möizələr oxunur. Allah əsgərlərimizi qorusun!".

❑ Xalidə GƏRAY

Yeni Müsavat
N 70 (6391) 4 aprel 2014

## İşğalçıya sarsıdıcı zərbə, ermənipərəst həmsədrlərə mesaj

**Azərbaycan prezidenti İlham Əliyev ABŞ-da ikən Qarabağ münaqişəsi zonasında vəziyyət aprelin 2-dən etibarən qəfildən gərginləşib. Rəsmi məlumatlara görə, hər iki tərəfdən artilleriya və ağır zirehli texnikadan istifadə olunduğu eskalasiya zamanı Azərbaycan düşmənin layiqli cavabını verib, onu ağır itkilərə məruz qoyub. Düşmənin iki qat artıq canlı qüvvəsi (onlarla ölü) və texnikası sıradan çıxarılıb, iki kəndimiz, iki strateji yüksəklik geri alınıb. Döyüşlər davam edir və düşmənin yeni təxribatları istisna olunmur.**




# Qarabağın taleyində mühüm dönəm başlayır... - qanlı savaşın pərdəarxası

## Ordumuzun blits-zəfəri - iki kənd, iki strateji yüksəklik geri alındı; düşmən atəşkəs dövrünün ən böyük itkisini verdi - onlarla ölü...; vasitəçilərin dəyişmək istəmədiyi status-kvonu Azərbaycan əsgəri dəyişir - xeyrimizə!; prezident ABŞ-da ikən Azərbaycana qarşı törədilən avantürada "rus izi", bumeranq effekti...

Bununla belə, yenə sual ortaya çıxır ki, Ali Baş Komandan İlham Əliyev Amerikada ikən bu eskalasiya kimə lazım olub? Axı məntiqlə Azərbaycanın hücum planı olsaydı, Ali Baş Komandan Bakıda olardı. Yada salaq ki, 2014-ün avqustunda baş vermiş "3 günlük müharibə" zamanı Azərbaycanın müdafiə naziri Zakir Həsənov ölkədə olmamışdı - hərbi nazir məzuniyyətdə idi. O vaxt hadisələrdə "Rusiya izi" aydın görünmüşdü. Yenə şübhələr Kremlin üzərinə gəlir - bir neçə mühüm və vazkeçilməz səbəbə görə.

***

Ondan başlayaq ki, prezidenti İlham Əliyevin ABŞ-a yetərincə uğurlu səfərinə düşmən tərəfi və onun əsas havadarının neqativ reaksiyası gözlənilən idi. Çünki səfər çərçivəsində ölkə başçısının prezident Barak Obama başda olmaqla, Amerikanın ali rəsmi şəxsləri ilə keçirdiyi çoxsaylı məhsuldar görüşlər əksər ekspertlər tərəfindən Azərbaycan-ABŞ münasibətləri tarixində mühüm mərhələ kimi, qiymətləndirilir.

Söhbət öncəliklə energetika sahəsindən, o sırada Azərbaycan qazının Rusiyadan yan keçməklə Avropa bazarlarına çatdırılmasını nəzərdə tutan Cənub Qaz Dəhlizi ( TANAP və TAP) layihəsinə rəsmi Vaşinqtonun dəstəyindən, təhlükəsizlik, terrorla mübarizə sahələrində birgə əməkdaşlığın gücləndirilməsinə dair anlaşmalardan gedir. Bu görüşlərin hamısında Amerika rəsmiləri ölkəmizin regiondakı aparıcı rolunu və önəmini xüsusi vurğulamışdılar.

Bundan əlavə, görüşlər zamanı həm dövlət katibi Con Kerri, həm də vitse-prezident Co Bayden səviyyəsində ərazi bütövlüyümüzə birmənalı dəstəyin ifadə olunması, İlham Əliyevin habelə, Amerika siyasətinə ciddi təsiri olan yəhudi lobbisinin əsas fiqurları ilə bir araya gəlməsi, nəhayət, bütün bunların Ermənistan prezidenti Serj Sərkisyanın ABŞ səfərini tamamən və əzici şəkildə kölgədə qoyması fonunda baş verməsi düşmən tərəfini və onun əsas müttəfiqini qıcıqlandırmaya bilməzdi.

***

Belə vəziyyətdə Ermənistan hökuməti üçün daxili ictimai rəyi uğursuz səfərin nəticələrindən yayındırmağın yeganə optimal və "uğurlu" yolu kimi ənənəvi olaraq təmas xəttində gərginliyi artırmaq, Azərbaycana qarşı yeni təxribatlara əl atmaq qalırdı. Üstəlik, indiki eskalasiyada Rusiyanın marağı əvvəlkilərdən daha çox idi. Çünki rəsmi Bakının Vaşinqtonla hər hansı yaxınlaşması şimal qonşumuzu qane eləmir. Bir səbəbi yuxarıda qeyd etdik.

Yəni baş verənlər ilk növbədə ABŞ-Azərbaycan yaxınlaşmasına qarşı rus-erməni təpkisi qənaəti yaradır. Son eskalasiyada da erməni təxribatı və onun arxasındakı məlum qüvvənin mövcudluğuna prezident İlham Əliyev Təhlükəsizlik Şurasının son toplantısında aydın işarə vurub. Sitat: "Biz atəşkəsi pozmamışıq, biz sadəcə olaraq təxribata layiqli cavab vermişik. Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq" (Çıxışın tam mətni ayrıca verilir).

Yeri gəlmişkən, Azərbaycan və Ermənistan dövlət başçılarının Vaşinqton görüşünün reallaşmamasında bu amilin də rolu istisna deyil. Maraqlıdır ki, məhz həmin mümkün görüş və İlham Əliyevin Vaşinqton təmasları ərəfəsində Putinə yaxın "Valday" analitik qurumu yaydığı hesabatda Azərbaycanı "Gürcüstan ssenarisi" ilə hədələmişdi.

Budəfəki eskalasiya həmçinin, Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakı səfəri ərəfəsində (7 aprel) Kremlin bir güc nümayişini xatırladır. Yəni Azərbaycana belə bir mesaj verilir ki, Qarabağ məsələsində Amerika yox, məhz Rusiya əsas və həlledici ölkə olaraq qalır və ilk növbədə onunla hesablaşılmalıdır. Məlum olduğu kimi, Lavrov Bakıda Qarabağ problematikasını da müzakirə edəcək.

***

Cəbhədəki son qarşıdurmaya dəxli olan daha bir mühüm detalı qeyd etməliyik. Belə ki, cəmi bir gün öncə erməni mənbələri yazmışdı ki, Serj Sərkisyan Vaşinqtonda Co Baydenlə görüş zamanı təmas xəttində yeni monitorinq mexanizminin yaradılması (işğalçının özünü daha rahat və arxayın hiss eləməsi - red.) üçün ABŞ-dan dəstək istəyib, bu yöndə bəzi ermənipərəst konqresmenlərin Obamaya müraciətini nümunə göstərib və ölkəmizi hədələyərək bildirib ki, əks halda Ermənistan "Azərbaycana qarşı təkbaşına preventiv addımlar atacaq".

Bundan az öncə isə ATƏT seminarında Ermənistan müdafiə nazirinin müavini David Tonoyan işğalçı ölkənin "müdafiə hərbi doktrinasından preventiv çəkindirmə doktrinasına" keçdiyini bəyan eləmişdi. Bütün bunlar, əlbəttə ki, təsadüf deyildi və cəbhə xəttindəki son gərginliyin səbəb-nəticələr zənciri ilə tam şəkildə uzlaşır.

***

Ancaq erməni faktoru həmişəki kimi məsələdə bir alət, vasitədir. Dirijor çubuğu isə yenə Rusiyanın əlində görünür. İstisna deyil ki, bununla Kreml ABŞ-a da mesaj yollamaq istəyib. Buradaca xatırladaq ki, prezident Putin Vaşinqton sammitini boykot edib. Obama isə öz çıxışlarında Rusiyanı, Putini sərt tənqid eləmiş, Rusiyanı nüvə silahlarının yayılmaması haqda müqaviləni uzatmaq istəməməkdə ittiham eləmişdi.

Yanakı səbəblər də var. Söhbət Putinin şəxsi ədavətdə olduğu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla Barak Obama arasında baş tutan təkbətək və səmimi görüşün yaratdığı qıcıqdan gedir. Bu görüş, şübhəsiz, ən əvvəl Rusiyaya bir çatdırış idi ki, bəzi fikir ayrılıqlarına rəğmən, Vaşinqton Ankaranın yanındadır.

***

Söz düşmüşkən, Qarabağda yeni müharibə məntiqlə Rusiya ilə münasibətləri qaydaya salmağa cəhdlər edən Türkiyənin marağında ola bilməzdi - erməni tərəfi bu versiyasını gözə soxmağa çalışsa da. Heç Rusiya da Qarabağda Türkiyə ilə toqquşmaq istəməz. Hər halda münasibətləri normala salmaq indi Moskvaya Ankaradan daha çox lazımdır. Bu cür təhlükəli "Qarabağ avantürası" isə Moskva üçün bumeranq effekti də verə bilər, çünki hərbi əməliyyatların proqnoza yatmayan istiqamətdə inkişaf tapmayacağına kimsə zəmanət vermir (Necə ki, Azərbaycan Ordusu düşmənə layiqli kontur-zərbə endirərək onu ağır itkilərə məruz qoydu).

Başqa sözlə, mini-müharibə, lokal xarakterli gərginlik Moskvaya yalnız ondan ötrü gərək ola bilərdi ki, münaqişə tərəfləri ilə yanaşı, Türkiyə və ABŞ-a da "bölgənin əsl yiyəsinin kim olduğunu" nümayiş etdirsin. Yəni Qərblə növbəti siyasi bazarlığa hesablanmış "əzələ nümayişi". Rusiya rəsmilərinin, prezident Putinin münaqişə tərəflərinə ünvanlı çağırışlarının arxasında duran əsas məram budur. Bunun ardınca Putin 2014-də Soçidə olduğu kimi, "baş arbitr" qismində yenə Əliyevlə Sərkisyanı nümayişkaranə şəkildə bir araya gətirsə, təəccüblənmərik...

***

Əlavə edək ki, Rusiyanın Suriyadan öz hərbi qüvvələrinin əsas hissəsini çıxardıqdan sonra Ukrayna və Güney Qafqaza diqqətini artıracağı gözlənilirdi. Təsadüfi deyil ki, Ukrayna məsələsində (Donbas) də Moskvanın siyasi-diplomatik, hərbi fəallığı son vaxtlar xeyli artıb. ABŞ dövlət katibi Con Kerri və Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayerin təzəcə başa çatan Moskva səfərləri buna sübutdur.

Lakin konflikt zonasındakı son hadisələrin hamıya, o cümlədən Rusiyanın özünə verdiyi ən böyük xəbərdarlıq mesajı budur ki, nə qədər ki, Dağlıq Qarabağ konfliktinin həllində ciddi irəliləyiş yoxdur, Ermənistan işğal elədiyi Azərbaycan torpaqlarının heç olmasa, bir hissəsindən çıxmağa hazırlaşmır, o zamanadək bu münaqişə potensial qaynar müharibə mənbəyi olaraq qalacaq və konfliktə cəlb olunmuş dövlətlərin hamısının maraqlarını təhdid altında saxlayacaq...

Əslində son eskalasiyanı Kəlbəcərin işğal gününə ordumuzun əvəzsiz sürprizi və blits-zəfəri adlandıra bilərik. Bu, o deməkdir ki, Azərbaycan əsgəri vasitəçilərin on illərdir dəyişə bilmədiyi, daha doğrusu, dəyişmək istəmədiyi status-kvonu artıq xeyrimizə dəyişməyə başlayıb.

Bu, o deməkdir ki, sonrakı danışıqlarda Azərbaycan daha inamlı, Ermənistan isə daha zəifləmiş mövqedə olacaq və həmsədrlər də yeni reallığı ciddiyə almalı olacaqlar. Bu reallıq həm də ondan ibarətdir ki, Azərbaycan istənilən an öz torpaqlarını güc yolu ilə azad eləmək qabiliyyətinə malikdir və sonsuzadək gözləmək niyyətində deyil. Ermənipərəst həmsədrlərə verilən ən qiymətli mesaj-çatdırış budur...

***P.S.*** Yazı çapa gedərkən Azərbaycan tərəfinin hərbi əməliyyatları birtərəfli qaydada, lakin şərtlə dayandırmaq qərarı verdiyi bəlli oldu. Bu barədə Müdafiə Nazirliyinin yaydığı açıqlamada deyilir: "Beynəlxalq qurumların təkidli müraciətləri və Azərbaycan dövlətinin sülhsevər siyasət yürütməsinin nəticəsi olaraq, Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş ərazilərimizdə düşmənə qarşı əks-həmlə əməliyyatını və cavab tədbirlərini birtərəfli qaydada dayandırır, azad olunmuş ərazilərin və torpaqların müdafiəsini gücləndirmə tədbirlərinin təşkilinə başlanması barədə qərar qəbul edir. Ermənistan silahlı qüvvələrinin təxribatçı fəaliyyətlərindən əl çəkməyəcəyi və yaşayış məntəqələrimizi, mövqelərimizi təkrarən atəşə tutulmasını davam etdirəcəyi təqdirdə qoşunlarımız silahlanmada olan bütün vasitələrdən istifadəyə məhdudiyyət qoymadan düşməni darmadağın edərək işğal altında olan torpaqların azad edilməsi və ərazi bütövlüyümüzün təmin olunması məqsədilə hücum əməliyyatlarını davam etdirəcək".

**❑ Analitik xidmət**

YENİ MÜSAVAT
N 70 (6391) 4 aprel 2016

# Azərbaycan Universitetinin rəsmisi təhsil maxinasiyalarının detallarını "Yeni Müsavat"a açıqladı

## **Fəxrəddin Məhərrəmov:** "AU-nun Elmi Şurasının üzvlərinin 60-70 faizinin elmi dərəcəsi yoxdur"

**Müsahibimiz Azərbaycan Universitetinin (AU) Həmkarlar İttifaqı Komitəsinin sədri olmuş Fəxrəddin Məhərrəmovdur. Universitetdə baş verən qanunsuzluqlara göz yummadığı üçün tutduğu vəzifədən uzaqlaşdırılan F.Məhərrəmov təhsil ocağında hökm sürən qanunsuzluqlarla bağlı ciddi faktları açıqladı.**

**"Kim belə keyfiyyətsiz təhsil xidmətləri göstərən, tələbələri xarici diplom və ya sertifikat verməklə aldadan ali məktəbdə oxuyar?"**

- AU özünün əsas tədris korpusunu bu yaxınlarda itirdi. Qanunvericiliyə əsasən ali təhsil müəssisəsinin yerləşdiyi binanın ümumi sahəsi orada təhsil alan hər bir tələbəyə 8-10 kvadratmetr nəzərdə tutulmaqla seçilməlidir. Lakin universitet yerləşdiyi 1-ci tədris binasını kirayə haqqını ödəyə bilmədiyindən və hazırkı dövrdə də icarədara aylarla ödəmədiyi böyük məbləğdə kirayə borcu ola-ola tərk etmək məcburiyyətində qaldı. Artıq AU 2 tədris binasında fəaliyyət göstərir və bu da hər tələbə başına düşən sahənin 3-4 kvadratmetrə enməsi deməkdir. Universitetin bu iki tədris binasından birinin- Tiflis prospektində yerləşən 2-ci tədris binasının isə ümumiyyətlə qeydiyyat sənədi və təhlükəsizlik normalarına uyğun olması haqda sənədləri yoxdur.

***- Fərid Əhmədov AU-da həyata keçirdiyi dəyişiklikləri təhsilin inkişafı sahəsində aparılan islahatlarla əsaslandırır. Sizcə, bu islahatlar səmərəli nəticə verə bilərmi?***

- 2014-cü ildə prezidentin təsdiqlədiyi Təhsilin İnkişafı Strategiyası mövcuddur. Ayrı-ayrı ali məktəblərdə bu strategiyadan irəli gələn tədbirlər planı tərtib ediblər. Fərid Əhmədovun bundan heç xəbəri də yoxdur, universitetdə bu sahədə heç bir iş görməyib. Onun universitetdə apardığı "islahatlar" nəticəsində tələbələrin sayı 1800-dən 1300-ə düşüb. Bu da təbiidir. Kim belə keyfiyyətsiz təhsil xidmətləri göstərən, tələbələri xarici diplom və ya sertifikat verməklə aldadan, rektorun əmri ilə qeyri-qanuni əsaslandırılmamış şəkildə dövlət imtahanına görə əlavə təhsil haqqı tələb edən təhsil müəssisəsinə oxumağa gələr? Universitet öz öhdəliklərini bu tələbələr qarşısında mütləq surətdə yerinə yetirməlidir.

***- AU-nun elmi tədqiqat və ya tədris yönümlü ali məktəb olması haqda iddiaları özünü doğruldurmu?***

-Ali təhsil müəssisələri Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Ali Təhsil Müəssisələrinin Nümunəvi Əsasnaməsi"nə uyğun idarə olunurlar. Əsasnamədə ali məktəbin tədrislə yanaşı elmi tədqiqat (araşdırma) aparmalı olduğu birmənalı olaraq göstərilib. Mütərəqqi xarici təcrübədə də belədir. Azərbaycanda elmi tədqiqat və araşdırmalar müxtəlif nazirliklərin, komitələrin nəzdində fəaliyyət göstərən elmi tədqiqat institutları və müəssisələrində (Məsələn, Səhiyyə Nazirliyinin Ortopediya və Travmatalogoya İnstitutu) və AMEA-da elmi tədqiqat işləri aparılır. Təkcə AMEA-da 10 min elmi işçi var. Onların içində 100-lərlə AMEA-nın həqiqi və müxbir üzvləri, fəlsəfə və elmlər doktorları vardır. Elə Universitetin təsisçisi Akif Musayev də AMEA-nın müxbir üzvüdür (onun AMEA-nın binasının 1-ci mərtəbəsində ayrıca tədqiqat-laboratoriya kabineti var, maraqlananlar gedib görə bilərlər). Rektor Fərid Əhmədovun ali məktəblərin elmi tədqiqat və tədris fəaliyyətini ayırmağa çalışması onun özünün və müxtəlif vəzifələrə təyin etdiyi əlaltılarının zəif elmi potensiala malik olmaları və elmi dərəcələri olmadıqları üçün Azərbaycan Universitetini elmi tədqiqatlardan uzaqlaşdırmaq istəyindən irəli gəlir. 2015-2016-cı tədris ilində Azərbaycan Universitetinə "İqtisadi fəaliyyət növləri", "Ümumi iqtisadiyyat", "Müəssisələrin təşkili və idarə olunması" ixtisasları üzrə fəlsəfə doktoru hazırlığı proqramı üzrə qəbul planına uyğun olaraq ümumilikdə 6 yer olmaqla doktoranturaya 3 (qiyabi şöbə), dissertanturaya 3 yer ayrılıb. Sizə guya Oksfordda təhsil almış və ali təhsil müəssisələrində tədrisin təşkili sahəsindəki dərin bilikləri ilə öyünən rektor Fərid Əhmədovun bu tədris ilində ali təhsilin doktorantura pilləsinə tələbələrin qəbul edilməsi ilə bağlı əmrinin surətini təqdim edirəm. Bu əmr hazırda universitetin bütün struktur bölmələrinə göndərilərək elan edilib. Təhsil qanunvericiliyinə əsasən Təhsil Nazirliyi və Nazirlər Kabineti tərəfindən müəyyən edilən doktorantura pilləsinə qəbul planındakı yerlərə yalnız Azərbaycan vətəndaşları qəbul edilə bilərlər. Bu sənəddən isə göründüyü kimi "Beynəlxalq hüquq" ixtisasını bitirmiş hüquqşünas, hüquq üzrə fəlsəfə doktoru rektor Fərid Əhmədov həmin yerlərə Azərbaycan vətəndaşları ilə birgə xarici vətəndaşların - Türkiyə vətəndaşlarının da qəbul edilməsi haqda əmr verib. Halbuki xarici vətəndaşlar Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq tamamilə başqa əsaslarla Azərbaycan Respublikasında doktoranturada təhsil ala bilərlər. Təkcə bu əmrdən Fərid Əhmədovun beynəlxalq hüququ və təhsil hüququnu hansı səviyyədə bilən hüquqşünas olması bəlli olur. Belə biliklərə malik olan şəxs universitet rektoru işləyə bilərmi?! Universitetin əməkdaşlarının verdikləri məlumatlara əsasən Fərid Əhmədov bu yerlərlə kifayətlənməyərək Təhsil Nazirliyinə əlavə yer üçün də müraciət edib və imtina cavabı alib. Həmçinin, Fərid Əhmədovun işə götürdüyü əsas əlaltılarından biri, tədris şöbəsinin müdiri - ixtisasca riyaziyyatçı olan Ədalət Əliyevi də bu il iqtisad üzrə fəlsəfə doktoru hazırlığı proqramı üzrə doktoranturaya qəbul etdirib. Sual olunur: Ədalət Əliyev iqtisadiyyat və idarəetmə sahəsində heç bakalavr pilləsinin birinci kurs tələbəsi səviyyəsində biliklərə malik olmadan bu ixtisas üzrə müsahibədən necə keçirilib? Bu doktorantura pilləsinə qəbul imtahanlarının formal şəkildə keçirilməsindən və imtahan nəticələrinin saxtalaşdırılmasından xəbər verir. Əgər qəbul komissiyasının sədri Fərid Əhmədovdursa, başqa bir nəticə gözləməyə belə dəyməz.

***- Universitetin doktorantları redaksiyamıza etdikləri müraciətlərdə müxtəlif bəhanələrlə, razılıq almadan, zorla onlara əvvəllər müəyyən olunan elmi rəhbərlərinin dəyişdirilməsindən və hazırkı dövrdə onlara göstərilən təhsil xidmətlərinin keyfiyyətsizliyindən şikayət edirlər. Bu nə dərəcədə həqiqətə uyğundur?***

- Doktorantura pilləsində təhsil alan tələbələr tamamilə haqlıdırlar. Birmənalı olaraq qanunvericiliyə əsasən doktorantla elmi rəhbərin qarşılıqlı razılığı olmadan ona elmi rəhbər təyin edilə bilməz! Fərid Əhmədov isə özündən əvvəlki dövrə aid olan sənədlərə müdaxilə edə bilməz. Fərid Əhmədov özünün və əlaltıları olan Dünyamalı Vəliyev, Ədalət Əliyevin gözü götürmədiyi müəllimləri universitetdən uzaqlaşdırmaq üçün bu qanunsuz tədbirlərə əl atır. Əksər hallarda bu şəxslər savadlı, öz sahəsini və tədris metodikasını dərindən bilən mütəxəssislər, alimlərdir. Belə şəxslər isə universitetdə "ailə podratı" yaradan Akif Musayevin, Fərid Əhmədovun və onun savadsız əlaltılarının möhtəkir maraqlarına uyğun gəlmir. Gələcək alimlər olan doktorantlara elmi rəhbərlik etmək üçün hər hansı bir konkret elmi tədqiqat sahəsində dərin biliklərə malik olmaq, plagiat məqamları üzə çıxarmaq üçün həmin sahə üzrə bütün dünyada son elmi yeniliklərdən tam məlumatlı olmaq, doktorantın əldə etdiyi ixtira, yenilik və nəticələrin elmi cəhətdən əsaslandırılması üçün tədqiqat metodlarını yetərincə bilmək lazımdır. 1-2 il ərzində bir mövzu üzərində bu şərtlər daxilində işləyən həm doktorant, həm də elmi rəhbərin hansı rejimdə fəaliyyət göstərməsini təsəvvür edirsiniz? Belə olduğu halda elmi rəhbərin dəyişdirilməsi tədqiqatın nəticələrinə və doktorantın təhsilinə necə təsir edəcəyini deməyə ehtiyac yoxdur. Ali məktəbdə hansısa vəzifəni tutmaq üçün konkret tələblər var. Məsələn, universitetdə hüquqşünas işləmək üçün 5 il hüquqşünas kimi əmək stajina və 14-cü kateqoriyaya malik olmaq lazımdır. Amma Azərbaycan Universitetinin hüquqşünası Nurlana Məmmədova heç bir kateqoriyası və ya iş stajına malik olmadan bu vəzifəyə təyin edilib. Bu xanımın yanında ictimai bir yerdə dekanlıq və kafedralarda tədrisin təşkili qaydaları və doktorantlara elmi rəhbərlik etməyin sizə sadaladığım xüsusiyyətləri haqda danışanda bir universitetdə inzibati vəzifə tutan Nurlana Məmmədova qəşş edib gülməyə başladı. Ali təhsilə aid olan belə mövzuların bu xanıma nə dərəcədə yad olduğunu təsəvvür edin. Mən özüm bu biabirçi hadisənin şahidi olmuşam. Rektor Fərid Əhmədov bir saat da olsa dərs keçməyən, elmi dərəcəsi olmayan belə bir şəxsi qeyri-qanuni olaraq universitetin elmi şurasının elmi katibi təyin edib! Belə gülməli və biabırçı hadisəyə hələ heç bir yerdə rast gəlinməyib. Halbuki, qanunvericiliyə əsasən ali məktəbin elmi şurasının üzvləri yalniz elmi dərəcəsi olan şəxslər ola bilərlər. Hazırki dövrdə Azərbaycan Universitetinin Elmi Şurasının üzvlərinin 60-70 faizinin elmi dərəcəsi yoxdur. Onların içərisində hətta bakalavr və texnikum təhsili olan şəxslər də var. Fərid Əhmədov belə şəxslərdən ibarət olan bir elmi şurada gələcək alimlərin-doktorantların dissertasiya mövzuları və elmi rəhbərləri haqda müzakirələr edib qərar verir. Məgər onlar bu məsələlərlə bağlı söz demək səlahiyyətinə və biliklərə malikdirlər? Tam məsuliyyətimlə deyirəm: əgər bu gün AU Elmi Şurasının və hətta müvafiq elm sahələri üzrə ixtisaslaşmış elmi dərəcəli mütəxəssislərin daxil olduğu fakültə elmi şuralarının hazırda mövcud olan tərkibinin siyahısı Ali Attestasiya Komissiyasına (AAK) göndərilsə, biabırçılıqlar üzə çıxar. Heç olmasa bir dəfəlik də olsa hər hansı bir fəlsəfə doktorunun dissertasiyasını müzakirə etmək və onun bu elmi dərəcəyə layiq olub-olmaması haqda qərar qəbul etmək üçün müdafiə şurası təşkil etməyə icazə istənilsə, bu icazə ona heç vaxt verilməz! Nurlana Məmmədovanın qeyri-qanuni bu vəzifəyə təyin olunmasının səbəbi isə "Synergy Group"un keçmiş idarə heyətinin sədri, Dəyanət Quliyevin yaxını olmasıdır. Fərid Əhmədov peşəkar alimləri, mütəxəssisləri işdən uzaqlaşdırıb bu səviyyədə şəxsləri dəstəkləyir ki, onların yüksək vəzifəli himayədarları onun qanunsuz əməllərinə göz yumsunlar, ört-basdır etsinlər. Universitetdə belə bir şərait yaradan rektordan elmə və təhsilə hansı münasibəti gözləmək olar? Yaxın zamanda Fərid Əhmədovun 8 sinif qurtaran xadiməni prorektor, dekan, kafedra müdiri təyin etdiyinin də şahidi ola bilərik. Belə bir rektor fəlsəfə doktoru olan savadlı mütəxəssislərin elmi rəhbərlik etməsinə irad tutur? Bu qanunvericiliklə icazə verilən fəaliyyətdir. Bəs hüquqşünas Fərid Əhmədovun özü fakültə elmi şurasının qərarı ilə bir ilə yaxındır gələcək iqtisad üzrə fəlsəfə doktoruna necə elmi rəhbərlik edir?

***- Mətbuatda AU-da qohum-əqrəba və dost-tanışlardan ibarət xüsusi şəbəkə yaradıldığı haqda məlumatlar yayılıb. Bu şəbəkə kimlərdən ibarətdir?***

(ardı növbəti sayımızda)

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 70 (6391) 4 aprel 2016

# "Fırtınalı dənizdə üzən gəmi durumundayıq"

## Fazil Mustafa: "İslahat aparılması bilavasitə Qərblə münasibətlərin yaxşılaşdırılmasından asılı deyil"

**"Baxış bucağı"**

**Geridə qalan həftə bir sıra ciddi hadisələrlə zəngin oldu. Azərbaycan prezidentinin uğurlu Amerika səfərinin ardınca Azərbaycan ordusunun Qarabağ cəbhəsində düşmənə layiqli cavab verməsi ölkədə ictimai ovqata öz müsbət təsirini göstərib. Gündəmdə digər aktual mövzular da var. Bütün bunlarla bağlı Böyük Quruluş Partyasının başqanı, deputat Fazil Mustafanın baxışlarını öyrəndik.**

***- Fazil bəy, Qarabağ cəbhəsində ağır döyüşlərin getdiyi bir durumda cəmiyyətin vahid mövqedən çıxış etməsi çox vacibdir. Necə bilirsiniz, indiki situasiyada iqtidar və müxalifətin birgə hansısa addımına ehtiyac varmı?***

- Bu ərəfədə iqtidar-müxalifət dialoqunun gerçəkləşməsinə xüsusi ehtiyac duyulur. Bu, həm öz cəmiyyətimizə, həm də xarici ölkələrə Qarabağ məsələsində bütün cəmiyyətin eyni mövqedə olduğunu bəyan etmək, əyani göstərmək baxımından faydalı addım olardı.

***- Ötən həftə gündəmin əsas mövzularından biri dövlət başçısının Amerika səfəri və keçirdiyi görüşlər oldu. Dünyanın supergücü ilə münasibətlərdəki gərginlik normal ünsiyyətlə əvəzlənib. Bu, Azərbaycanın taleyinə nə vəd edir? Necə hesab edirsiniz, burada Azərbaycan hakimiyyəti qazandı, yoxsa bütövlükdə dövlətimiz?***

- Ölkə prezidentinin ABŞ-a budəfəki səfəri iki cəhətdən xüsusi əhəmiyyət daşıyır. İlk olaraq nüvə sammitində Azərbaycan dövlətinin növbəti dəfə təmsil olunması bir nüfuz göstəricisidir. İkincisi isə son vaxtlar Rusiyanın bölgəsəl məsələlərdə daha aktiv rol almasından sonra ABŞ-la münasibətlərin ikinci plana düşəcəyinin həqiqətəuyğun olmadığının isbatı baxımından əhəmiyyət daşıyır. Prezidentin bu tarixi fürsəti dəyərləndirərək Dağlıq Qarabağ məsələsini daha mötəbər səviyyədə gündəmə gətirməsinin də müsbət nəticələri ola bilər. Çünki ABŞ-ın rəsmi məqamlarının Azərbaycanın ərazi bütövlüyü haqqında mesajları da bu ərəfədə bizim üçün normal bir vəziyyətdən xəbər verir. Ümumilikdə isə ABŞ-la münasibətlərimizin dostluq səviyyəsində olmasına yalnız hakimiyyətin qazancı kimi deyil, həm də Azərbaycan dövlətimizin qazancı kimi baxılmalıdır.

***- Amerikada Azərbaycan əleyhinə qüvvələr kifayət qədər olduğu kimi, Azərbaycanda da Rusiyanı özünə daha yaxın sayıb Amerika ilə ultimativ dillə danışanlar az deyil. Hətta ABŞ əleyhinə sanksiya qərarının qəbulu ilə bağlı təşəbbüslər də olmuşdu. Necə bilirsiniz, indiki durum onları, yaxud elə qonşu Rusiyanı razı salırmı, yoxsa növbəti sürprizlərə hazır olmalıyıq?***

- Biz onsuz da fırtınalı dənizdə üzən gəmi durumundayıq. Sağımız da, solumuz da, böyür-başımız da təhlükələrlə doludur. Bircə qardaş Türkiyə tərəfdən gələn mayakın işığını uzaqdan görüb təsəlli tapırıq. Ona görə də hansı ölkə və cinahla yaxınlaşarsaq, digər cinahlardan üzümüzə dalğalar çırpılacaq. Azərbaycanda birmənalı Amerikanpərəst və birmənalı Rusiyapərəst qüvvələrin mövcudluğu bir reallıqdır. Bunun yanında cəhalət yükümlü İranpərəst qüvvələr də mövcuddur. Ancaq Azərbaycan maraqlarını hər şeydən uca tutan kifayət qədər vətənsevər çoxluğun olması bu cinahların ölkənin taleyini dəyişəcək bir gücə çevrilməsinə heç vaxt imkan tanımaz. Ona görə də böyük dövlətlərlə böyük-böyük danışmaqdansa, öz səs tembrimizlə danışsaq, daha az zərər görərik. Biz kiminsə yanında yerə bərkidilmiş kresloda uzun müddət oturmaq rahatlığına sahib deyilik. Təkərli kresloda hərəkət etmək zorundayıq. Təbii ki, bizim Rusiya ilə yaxınlığımız ABŞ-ı o qədər də narahat etmir, çünki ABŞ-ın maraqlarında bizim ərazimiz deyil, onun maraqlarına zidd olmayan mövqeyimiz əsas yer tutur. ABŞ-la yaxınlığımız isə Rusiyanı daha çox rahatsız edir, çünki Rusiya özünün imperiya ambisiyalarına görə bizim əraziyə tərəf kiminsə boylanmasına qısqanclıqla yanaşır. Ona görə də biz hansı siyasəti yeritsək, kimisə narazı salacağımızı göz önündə tutmalıyıq, lakin bunu çox da beynimizə qorxu sindromu kimi yerləşdirmədən özümüzü qane edən xarici siyasət kursunu davam etdirməliyik.

***- Qərblə münasibətlərdə müsbət irəliləyişlərin müşahidə olunması şəraitində, ölkədə islahatlarla bağlı prosesin, nəhayət, sürət götürəcəyini güman edirsinizmi, yoxsa islahat əleyhdarları yenə də tormozlayıcı rol oynayacaq?***

- İslahat aparılması bilavasitə Qərblə münasibətlərin yaxşılaşdırılmasından asılı deyil. Bu strateji uzaqgörənliklə bağlı məsələdir və daha çox dövlətin gələcəyinin necə olmasını şərtləndirən düşüncənin diktəsindən asılıdır. Bu gün ölkənin qarşısında birinci məsələ təhlükəsizliyin, sabitliyin qorunmasıdırsa, bu hədəf islahatların dərinləşəcəyini ehtiva etmir. Ancaq neftin qiymətinin aşağı düşməsi yeni iqtisadi münasibətlərin formalaşmasını tələb edirsə, o zaman daha çox sahəvi, bir qədər də sıçrayışsız islahatların aparılmasına ümid yaradır. Hər halda Azərbaycanda əsas problem inhisarçılığın buxovundan iqtisadiyyatın azad olunmasıdır və ilk addım olaraq islahatlar bu hədəfə yönəlmədikcə, devalvasiyadan sonra yaranmış vəziyyəti müsbətə doğru dəyişmək asan olmayacaq. Hökumətin son aylarda aldığı müsbət qərarlar var, ancaq vergi siyasətində sahibkarlığın inkişafı üçün stimullaşdırıcı əsaslı dəyişikliklər baş verməyincə, bu müsbət qərarların bəhrəsini görmək hələ ki, çətin olacaq.

***- Fazil bəy, siz parlamentdə davamlı şəkildə əfv çağırışları edən deputatlardansınız. Son günlərdə bir sıra şəxslər azadlığa buraxıldı. Amma yenə də həbsdə olan tanınmış simalar var. Onlarla bağlı gözləntiləriniz nədən ibarətdir?***

- Prezidentin sonuncu əfv sərəncamı ilə Avropa Şurasının və beynəlxalq təşkilatların tərtib etdikləri siyahılarda yer alan şəxslərin azadlığa çıxması həm ölkə vətəndaşları, həm də beynəlxalq qurumlar tərəfindən humanist bir addım kimi qiymətləndirildi. İntiqam Əliyevin də azadlığa çıxması çox müsbət bir jest oldu. Çox güman ki, bu siyahılarda yer alan digər bir neçə şəxs də yaxın zamanlarda azadlığa qovuşacaq. Hər halda son vaxtlar atılan addımlar buna ümid yaradır.

***- Belə iddialar var ki, həbsdən buraxılanların yeri yeniləri ilə doldurulacaq. Sizin belə bir narahatlığınız varmı, yoxsa hakimiyyət yeni bir dönəm başladır?***

- Fikrimcə, hansısa hakimiyyət həbsxanada daha çox adam saxlamaqdan məmnunluq duymaz. Qanunlar çərçivəsində siyasi və ictimai fəaliyyətə hər kəs daha çox diqqət yetirərsə, kimsə ictimai-siyasi fəaliyyətinə görə həbsxanada əziyyət çəkməyə mübtəla olmaz. Hər halda ümid edək ki, yeni bir dönəm başlayır, həm hakimiyyət müxalif fikirliliyə daha dözümlü yanaşacaq, həm də müxalif düşüncəli insanlar işlərini qanunun tələblərinə daha da uyğun quracaqlar. Çünki ölkənin bədxahlarına siyasi məhbus adı ilə bəhanə vermək heç bir halda dövlət olaraq maraqlarımıza uyğun deyil.

***- Araz Əlizadənin himn təşəbbüsü qarşılıqlı təhqirlərlə müşayiət olunan müzakirələrə səbəb oldu. Sizin statusunuzdan belə aydın oldu ki, bu kimi təşəbbüslərin müzakirəsində zərərli bir şey görmürsünüz. Necə hesab edirsiniz, milli dəyərlərə, milli atributlara, tarixi şəxsiyyətlərə əl və dil uzadılması, onların aşağılanması nədən bu qədər əlçatan olub? Bəlkə digər mövzular təhlükəli sayılır, ona görə? Ümumiyyətlə, bizim cəmiyyət olaraq dəyişikliyə meylli olmadığımız şəraitdə himn dəyişikliyi mövzusu yersiz deyilmi?***

- Dövlətin qəbul olunmuş atributları barədə hörmətsiz davranmaq yolverilməzdir və qanunla bu cəzalandırılır. Himnə də, gerbə də, bayrağa da həmişə yüksək saygı göstərməliyik. Ancaq dövlətin heç bir atributu, o cümlədən tarixi şəxsiyyətlər müqəddəslik toxunulmazlığı ilə müzakirədən kənarda tutula bilməz, çünki enində-sonunda bu da ayrıca bir insanla və ya insanların intellektual əməyinin məhsulu ilə bağlı məsələlərdir. Müqəddəsliyi biz dövlətə şamil edə bilərik, ata-babalarımızın ideyasını və yaşayan nəslin iradəsini ifadə edən institut olduğuna görə. Ancaq dövlətin atributlarının zamanla uzlaşıb-uzlaşmaması istənilən tarixi dövrdə müzakirə oluna bilər və himnlə bağlı məsələyə də bu kontekstdə yanaşmalıyıq. Araz Əlizadənin bir çox fikirlərini bölüşməsəm də, onun himnlə bağlı açıqlamasında təhqir elementi görmədim, sadəcə, bəlkə deyiliş üslubu bir qədər insanları qıcıqlandırıb. Bəyənib-bəyənməmək hər kəsin öz işidir, ancaq bu mövzuda fikir bildirməyi qadağan etmək hüquq haqqında bilgilərin məhdud olmasından irəli gəlir. Mən dövlətimi sevirəm, bayrağını ən mükəmməl kəşf sayıram, gerbini çox anlamlı hesab edirəm, ancaq himnimizin həm musiqi, həm mətn-məna baxımından arzuladığım mükəmməllikdə olmadığını dəfələrlə yazıram. Bu o demək deyil ki, himni, bayrağı və ya gerbi dəyişmək lazımdır. Ona görə də bu mövzuda vətənpərvərlik yarışına çıxıb xüsusi ajiotaj yaratmağı doğru saymıram. Bir çox məqamlarda anlaşılan budur ki, cəmiyyət üzvlərinin çoxu əzbərlədiyi mətnin dəyişməsindən, yeniləşməsindən dəhşətli şəkildə qorxur. Ömür boyu qələmlə yazmış adamın birdən-birə kompüterlə təmasdan qorxduğu kimi. Dəyişiklik zamanın tələbi olanda cəmiyyətin dəyişim qorxusunun nəzərə almadan addımlayan insanların hesabına Amerika kəşf olunub. Unudulmaması vacib olan düstur budur.



**"Bu ərəfədə iqtidar-müxalifət dialoqunun gerçəkləşməsinə xüsusi ehtiyac duyulur"**

***- Bu arada talış separatçıları ilə bağlı dedikləriniz də qəzəblə qarşılanıb. Eldəniz Quliyevin sizin və İlham İsmayılın haqqında kəskin fikirlər yazmasını nəzərdə tuturam. Vaxtaşırı hədəfə alınırsınız, bundan da əvvəl radikal dindarların hədəfinə tuş gəlmişdiniz...***

- Zaman-zaman kimlərinsə hədəfinə tuş gəlməyimiz səbəbsiz deyil. Çünki bir çox həqiqətlərin dilə gətirilməsinin istər-istəməz suçluluq duyğusu olan insanlarda rahatsızlıq yaradacağını öncədən görmək olar. Biz dövlətimizin və millətimizin maraqlarını öz ideya və düşüncələrimizin işığında dilə gətiririk, bu zaman başqa xalqlara qarşı hansısa hörmətsizlik ifadə etmirik, sadəcə, bu xalqların adından istifadə edərək terroçuluğu və separatçılığı təbliğ edən ünsürlərə qarşı sərt mövqe ortaya qoyuruq. Bu zaman bəziləri terrorçulara və separatçılara olan simpatiyalarını ört-basdır etmək üçün guya tərəfimizdən öz xalqlarının hüquqlarının pozulduğunu iddia edirlər. Siyasi, dini, milli gerçəklərin insanlara doğru biçimdə çatdırılması bizim vətəndaşlıq borcumuzdur, ona görə də bu hücamların qarşısında həmişə olduğu kimi dik duruşumuzu qoruyacağıq.

***- Əfvə düşən məhbuslardan kimlərlə görüşdünüz? Yaxud onlara telefon açdınızmı, yaxud sizə zəng edib parlamentdəki təşəbbüslərinizə görə təşəkkür edən oldumu?***

- Xüsusi olaraq kimsə ilə görüşmədim, kimsədən də zəng gəlmədi. Ayrı-ayrı tədbirlərdə görüşəndə təbrik etməyi düşünürəm. Çünki heç birinin telefon nömrəsi məndə yoxdur. Onlar azad olunanda Türkiyədə səfərdə idim, yenə də isti-isti olsaydı, yəqin əlaqə saxlayardım. Əsas odur ki, azadlıqdadırlar, Allah kimsəyə həbsxana həyatı qismət etməsin!

***- Rüstəm İbrahimbəyovun ölkəyə girişinə imkan yaradılması təqdir olunurkən, qəfildən Əkrəm Əylislinin ölkədən çıxışına qadağa qoyuldu və barəsində cinayət işi açıldı. Bu ziddiyyəti necə izah edərdiniz?***

- Birinci məsələdə mənim prinsipial mövqeyim budur ki, insanları yaxınlarının ölümü məqamında acıları yaxından paylaşmaq duyğusundan məhrum etmək yanlış davranışdır və Rüstəm İbrahimbəyovun qardaşının dəfnində iştirakına anlayışlı yanaşmanı müsbət qiymətləndirirəm. Bunu mütləq qalıcı bir ənənəyə çevirməliyik ki, siyasi baxışları fərqli olan insanlarla hakimiyyət dairələrinin münasibətləri məhz siyasi dairədə qapanıb qalsın, insani məsələlərə zərər vuracaq səviyyəyə gəlib yetişməsin. Məsələn, indiyədək mənə hələ də çatmır ki, xaricdə yaşayan və xalq hərəkarında rolu olan Eldəniz Yusifovun qardaşının yasına görə ölkəyə buraxılmamasında hansı narahatedici məqamlar rol oynamışdı? Açığı, Əkrəm Əylisli məsələsində də köhnəlmiş mövzunun yenidən bu cür aktuallaşdırılmasının faydasının nə olduğunun izahını tapa bilmirəm...

❑ **Elşad PAŞASOY**



# Peşədən utanmaq

Zamin HACI
zaminhaci@gmail.com

**Beş nəfər olardılar. Bazarda alver edirlər. Əlləri qabarlı, üst-başlarından yetimlik yağan kasıb, orta yaşlı azərbaycanlı kişilər. Biri telefonla internetə girib, o biriləri də bunun başının üstündən çömbəltmə əyiliblər, nəsə axtarırlar. İnternetə girən oxuyur: "Həlak olan pilotlarımızın son fotoları". O birilərdən kimsə deyir: "Son durum yaz, baxaq". Axtarırlar. Telefonlu qardaş növbəti "tapıntısını" oxuyur: "Azərbaycan əsgərinin dua edən yerdə fotoları". Bəlkə həyatımda ilk dəfə jurnalist olduğuma görə utanıram. İstəmirəm bunu kimsə bilsin. Çünki onların orda axtardıqları həqiqətləri onlara verməli olan sahənin təmsilçisiyəm. O sahənin ki, qələmini çoxdan qırıblar, atəş nöqtələrini susdurublar, ara zolaqda qalan meyitləri də illərdir çürüməkdədir. Dəfn etməyə belə icazə yoxdur.**

Bizə bu da azdırmı? Neyləmək olar? Həqiqət hardadır və onu necə tapmaq mümkündür? Siseron "Müharibə səhnələri zamanı qanunlar susur" deyərkən Azərbaycan KİV-lərinin söz azadlığı, xalqa həqiqəti çatdırmaq missiyasını dondurmasını da nəzərdə tuturdumu? Müxalifət partiyasının rəhbəri ölkənin ən qeyri-şəffaf bir sahəsində baş verənlərə "hurrey" deyib dəstək verirsə, uca millətdən nə gözləmək lazımdır? Niyə adamlar anlamır ki, istənilən atəşkəs insan ölümündən yaxşıdır? Neçə adam ölürsə, bu, qaçılmaz sülh sazişinin neçə adam boyda uzağa düşməsi deyilmi? Bəs Cavidin "Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur yer üzünü" misralarını paytaxt küçələrində lövhələrə yazırdınız, nə oldu onun axırı? Haçana qədər "döyüş alnınıza yazılıb" deyənlərin təxribatları cəbhə xəttlərinin hər iki üzündə icra başçılarının, nazir və deputatların uşaqlarının qanının axmasına səbəb olacaqdır? Yeri gəlmişkən, Ərdoğan Türkiyədə bunun daha "sivil" yolun tapıb: AKP üzvlərinin, pullu adamların uşaqları dövlətə müəyyən qədər pul ödəyib ümumiyyətlə əsgərliyə getmirlər.

Adamın yazığı gəlir: ölən uşaqlardan biri Biləsuvar çadır şəhərciyində doğulan cəbrayıllı idi. Elə orda da basdırdılar. Bu uşaq nə gün gördü, hansı yaşayış yaşadı axı?

Keçən dəfə ermənilərin provokasiya cəhdi zamanı helikopterin vurulması niyə bəzilərinə dərs olmadı? Niyə anlamaq istəmirlər ki, bu cür relyefi olan ərazidə döyüş helikopterini havaya qaldırmaq onun içindəkiləri asan hədəfə çevirməkdən başqa bir şey deyil?

Əlbəttə, Rusiya silah satışı baronlarının canı sağ olsun. Yenə hər iki tərəfə helikopter və onları vurmaq üçün silahlar sırıyarlar.

Demokratiya olmayınca bu münaqişə vaxtaşırı belə qurbanlarını udmaqla gününü keçirəcək. Çünki sülh danışıqları, millətləri yaxınlaşdırmaq və münaqişəni ədalətli həll etməyi ancaq millətlərdən gerçək mandat almış insanlar həyata keçirə bilər. Qalanı əfsanədir.

Deyir atəşi birtərəfli qaydada dayandırırıq. Niyə, nə oldu? Putin acıqlandı, yoxsa təzə silahlar alınmalıdır, vurulan helikopterlərin yeri dolmalıdır? O cümlədən, icra başçıları, nazirlər, deputatlar və müxalifət partiyalarının şefləri təzə igidlər əkib cəbhə xəttinə göndərməlidir? Yəqin ki. Oğlunu icra başçısı qoymuş, Qarabağ qazilərinə isə "adboy" verən lotu xalq şairi demişkən: "Qoy millətdə ruh yaşasın!". Buyurun - ruh yaşayır, cisim isə öldü.

Bu yaxında Tələbə Qəbulu Dövlət Komissiyası rəqəmlər açıqlamışdı, deyir filan rayonda filan qədər savadsız uşaq yaşayır, neçə nəfər orta məktəbin 11-ci sinif şagirdi ümumiyyətlə yazıb-oxumaq bilmir və sairə. Məleykə xanım, siz də təxribat etməyin. Guya o uşaqlar oxumağı öyrənib nə edəcəklər? Nə oxuyacaqlar? Biz jurnalistlərin yazdıqlarını?!

---



# "Prezident Əliyev Obama ilə özəl görüşüb, böyük proseslər başlayır" - iddia

## Azərbaycan rəhbərinin ABŞ-da keçirdiyi görüşlərin iki günlük Qarabağ savaşı ilə bağlantısı varmı? Vaşinqtondakı təmaslardan Rusiyanın qıcıqlanması mümkündür və bu, heç də Qarabağ məsələsində Ağ Evin təşəbbüsü ələ almaq istəməsindən yaranmayıb...

**Vaşinqtonda keçirilən IV Nüvə Təhlükəsizlik Sammiti başa çatdı. Azərbaycan prezidenti İlham Əliyevin də iştirak etdiyi sammit çərçivəsində Amerikanın siyasi-iqtisadi çevrələri ilə keçirdiyi görüşlərdən dərhal sonra Qarabağ cəbhəsində vəziyyətin kəskin pisləşməsi haqlı suallar yaradıb.**

Məlumdur ki, ABŞ prezidenti Barak Obamanın rəhbərlik etdiyi sammitdə Rusiya rəhbərliyi iştirak etmədi. Azərbaycan prezidentinin ən yüksək səviyyədə - dövlət katibi Con Kerri, vitse-prezident Co Bayden, eləcə də digər siyasi təmasları ciddi diqqət çəkdi. Keçmiş sovet respublikaları sırasında bu cür diqqət yalnız Ukrayna prezidenti Pyotr Poroşenkoya göstərildi ki, bunun da səbəbləri məlumdur.

Azərbaycana Ağ Ev rəhbərliyinin xüsusi diqqətinin Rusiyada qıcıqla qarşılanacağı gözlənilən idi. Qarabağ cəbhəsində baş verənlər barədə məlumatlar hələ ki tam açıqlanmayıb. Artıq atəşkəs elan olunmuş iki günlük hərbi eskalasiyaların planlaşdırılmış əməliyyat, yoxsa erməni tərəfinin təxribatı olması barədə yekdil rəy də yoxdur. Kreml rəhbərliyinin hərbi əməliyyatların başladığı ilk saatlarda "qollarını çirmələməsi"nin, sülh çağırışları etməsinin nə dərəcədə səmimi olduğunu söyləmək də çətindir. Amma cəbhədə baş verənlərdə Kremlin "barmağı" olduğunu düşünənlər də az deyil.

Vaşinqtondakı diplomatik mənbələrə yaxın dostlarımızdan aldığımız məlumata görə, Rusiyanın qıcıqlanması səbəbsiz deyil və bu, heç də Qarabağ məsələsində Vaşinqtonun təşəbbüsü ələ almaq istəməsindən yaranmayıb. Mənbəmizin iddiasına görə, ABŞ prezidenti Barak Obama ilə Azərbaycan prezidenti arasında rəsmi qaynaqlara düşməyən görüş olub. Görüşdə xüsusilə Xəzərdə birgə təhlükəsizlik məsələsi müzakirə olunub və Amerikanın Xəzərdə təhlükəsizliyin təmin edilməsində iştirakı ilə bağlı ilkin razılıq da əldə edilib. Əgər anlaşma reallaşarsa, ilin sonunda Amerikanın ən müasir texnologiya ilə təmin edilən kəşfiyyat gəmilərinin Xəzərdə görünməsi mümkündür.

Xəbərlərə görə, Amerika rəsmiləri Azərbaycana hər cür siyasi və hərbi dəstək veriləcəyini vəd ediblər. Əgər iddialar gerçəkdirsə, bu, faktiki Xəzərdə Rusiyanın təkhakimiyyətliliyinin sonu deməkdir ki, iddialara görə, Rusiyanı da ən çox bu razılaşma narahat edib və bu da cəbhədəki gərginliklə müşahidə edilib. Xatırladaq ki, Rusiya Suriyada hərbi əməliyyatlara başlayanda ilk uzaqmənzilli raketləri məhz Xəzər dənizindən buraxmışdı. Rusiya hərbiləşdirdiyi və özünü tək sahibi hesab etdiyi Xəzərin sahilyanı ölkələrini bu barədə heç xəbərdar belə etməmişdi.

Yeri gəlmişkən, Rusiyanın siyasi elitasının Vaşinqton sammitini boykot etməsinin özəl səbəbləri sırasında Suriya məsələsi də var. Vaşinqtondakı qaynağımız redaksiyaya yazır ki, Rusiya prezidentini ABŞ-da Ağ Evin hazırladığı sürpriz gözləyirmiş. Söhbət ondan gedir ki, Rusiya əslində Suriyadan qoşunlarını çıxarmayıb; Rusiyaya göndərilən kontingentin yerinə İran üzərindən Suriyaya geniş tərkibli hərbi hissə yollayıb. Rus hərbçiləri İran ordusunun formasında Bəşər Əsədə dəstək üçün Suriyada yerləşdirilib. Bu, faktiki Putinin beynəlxalq birliyi aldatmasıdır. Bu məlumatları təkzibolunmaz sübutlarla ABŞ kəşfiyyatı əldə edib. Pentaqon rus ordusunun Suriyada hansı hərbi mövqelərdə yerləşdiyini əldə edib. ABŞ bu məlumatları Putinin Vaşinqtona səfəri zamanı mətbuat konfranslarında açıqlamağı planlayıb. Yəni sammitdə Putinin dünya birliyinə necə kələk gəlməsi ən yüksək səviyyədə açıqlanacaqmış. Amma Kreml də ayıqlıq göstərərək Amerikanı bu ifşa zövqdən məhrum edib. Rusiya imtinanı iki ölkə arasında nüvə razılaşması olmaması ilə izah etsə də, belə görünür ki, Putin deşifrə diskomfortu yaşamaq istəməyib.

Mötəbər hesab olunan mənbəmizin redaksiyaya yolladığı elektron məktubda bir sıra təfsilatlar da yer alıb. Orada bildirilir ki, Rusiya Suriyaya, Əsədə dəstək üçün yolladığı hərbi kontingenti "...Moskva Tehran reysi ilə uçan sərnişin təyyarələrində İrana, oradan da İran hərbçilərinin geyimi ilə Şama göndərib. Nüvə sammiti ərəfəsində Pentaqon bunu deşifrə edib və Putinə qarşı "ictimai ifşa" hazırlanıb... Bundan başqa, Pentaqon Ağ Ev üçün Azərbaycan prezidenti ilə bağlı xüsusi məruzə hazırlayıb. Orada vurğulanır ki, ABŞ Azərbaycan prezidentinə tam dəstək verməlidir; Rusiyanın təzyiqlərinə qarşı Azərbaycanı tək buraxmaq olmaz. Məhz Azərbaycan hakimiyyəti ilə isti münasibətlər sayəsində Amerika Xəzərdə 3-cü ölkə kimi iştirak edə bilər. Məruzədə Xəzərdəki Amerika maraqları kontekstində Türkmənistan da açar ölkə kimi göstərilir və onun Azərbaycanla yaxınlaşması vacibliyi qeyd edilir. Mümkündür ki, yaxın zamanlarda məhz Amerikanın da dəstəyi ilə Türkmənistan, Azərbaycan və Gürcüstan arasında yeni iqtisadi və siyasi proses - inteqrasiya başlasın. Bu üçlü ittifaq həm də bölgədə İran və Rusiya təsirini qismən neytrallaşdıra biləcək faktor kimi nəzərdə tutulub".

Qaynaq yazır ki, Pentaqon Azərbaycan və bölgədəki istiqrar (sabitlik) baxımından prezident İlham Əliyevi əvəzedilməz fiqur kimi təqdim edir. Və Ağ Evi Azərbaycan prezidentinə tam dəstək verməyə çağırıb: "Pentaqonun bu önərisi artıq qəbul olunmuş sayılır. Obama administrasiyası bu sənəddəki təklifləri qəbul edib. Hətta yaxın günlərdə Azərbaycana Amerikanın üst-düzey hərbi müşavirləri səfər edəcəklər və Xəzərin təhlükəsizliyi ilə bağlı dialoqlar davam etdiriləcək. Kremil bundan qismi xəbərdardır, ona görə də aqressivləşib".

❑ **"Yeni Müsavat"**

# Qəfil müharibənin siyasi və hərbi nəticələri

## Ekspertlərdən maraqlı təhlillər; "Uğurlu əməliyyatlar davam eləməlidir, çünki..."

**Qarabağ cəbhəsində son iki gündə müharibənin aktiv fazaya keçməsi, Azərbaycan ordusunun hücuma keçən Ermənistan ordusunu geri oturtması, çoxsaylı itkilərə məruz qoyması, bir neçə kəndimizi və yüksəklikləri azad etməsinin siyasi nəticələri barədə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamalar verib.**

Elxan Şahinoğlu bildirib ki, əsas siyasi nəticələrdən biri odur ki, ATƏT-in Minsk Qrupu ilk dəfə olaraq Qarabağ məsələsi ilə bağlı toplantı keçirəcək. Son günlər yaşanan hadisələr ATƏT-in Minsk Qrupunu hərəkətə gətirdi, 11 ölkə yaranmış vəziyyətlə bağlı bir araya gələcək.

E.Şahinoğlunun sözlərinə görə, Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın vaxtilə dedikləri ermənilər üçün artıq reallaşmağa başlayıb: "1990-cı ilin ortalarında Dağlıq Qarabağ münaqişəsinin həll planında razılaşma əldə edilmək üzrə idi. Ermənistanın o zamankı prezidenti Levon Ter-Petrosyan Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycana geri qaytarılmasını nəzərdə tutan plana razılaşmışdı. Lakin ona imkan vermədilər. İndiki prezident, o zamankı daxili işlər və təhlükəsizlik naziri Serj Sərkisyan, baş nazir Robert Köçəryan Levon Ter-Petrosyanı devirdilər. Levon Ter-Petrosyan prezidentliyinin sonuncu günü bir məqalə yazmışdı. Həmin məqalədə qeyd etmişdi ki, vaxt gələcək indiki münasib şərtlərlə imzalaya biləcəyimiz sənəddən xeyli uzaq düşəcəyik. Ermənilər üçün Ter-Petrosyanın o zaman dediyi bu vəziyyət yaranıb. Biz çox gözlədik ki, böyük dövlətlər, ATƏT-in Minsk Qrupu, beynəlxalq təşkilatlar işğalçı Ermənistana təzyiq edib heç olmasa ilkin olaraq Dağlıq Qarabağ ətrafındakı rayonlardan ordunu geri çəkməyə razı salacaqlar. 20 ildən çox gözlədik, artıq bizə aydın oldu ki, onlar Ermənistana təsir göstərmək istəmirlər. Odur ki, bu dəfə Ermənistanın hücumuna çox ciddi şəkildə cavab verildi. Azərbaycan sübut etdi ki, Ermənistan ordusuna sarsıdıcı zərbə vurmaq, torpaqlarımızı güc yolu ilə azad etmək imkanındadır. Dünyanın demək olar ki, bütün beynəlxalq təşkilatlarının rəhbərləri, çoxlu sayda böyük dövlətlər bir günün içində Dağlıq Qarabağda vüsət alan müharibəyə diqqəti yönəltdilər. Onların içində Azərbaycanın haqlı mövqeyini açıq dəstəkləyənlər də, ortaq mövqe tutanlar da, Ermənistanı müdafiə eləyən də oldu. Azərbaycan yaranmış vəziyyətdə atəşkəs çağırışı eləyən bütün beynəlxalq təşkilatlara, dövlətlərə deməlidir ki, bunun müqabilində siz bizə nə təklif edirsiniz? Ermənistana təsir edib Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa məcbur edəcəksinizmi? Azərbaycan heç bir ölkənin ərazisində hərbi əməliyyatlar aparmır, öz ərazisini işğaldan azad etmək üçün addımlar atır. Bu müharibədə haqlı tərəf Azərbaycandır. Son iki gündə baş verən hərbi əməliyyatlar, ona reaksiyalar bir məqamı da ortaya çıxardı ki, Azərbaycanın hərbi üstünlüyünü genişləndirməlidir. Azərbaycan irəli getdikcə, dünya bəlkə bu münaqişənin tezliklə ədalətli həlli üçün işğalçı tərəfə işğal etdiyi ərazilərdən çəkilməsi üçün təzyiq edə bilər. Azərbaycan beynəlxalq təşkilatlarla ciddi təmaslarda olmalıdır. Beynəlxalq təşkilatlara reallığı çatdırmalıdır".


Elxan Şahinoğlu


Üzeyir Cəfərov

Ekspert onu da dedi ki, hadisələr ətraf ölkələrin mövqelərini ortaya qoyması baxımından da siyasi nəticəsini verdi: "Son bir neçə gündə baş verənlər Rusiyanın Ermənistanın yanında olduğunu bir daha ortaya qoydu. Aprelin 2-də Rusiya prezidenti mətbuat katibi vasitəsilə açıqlama verdi, vəziyyətdən narahat olduğunu dedi, Rusiyanın xarici işlər naziri və müdafiə naziri də eyni mövqeni sərgilədi. Həmin gün Türkiyənin prezidenti, baş naziri, xarici işlər naziri, müdafiə naziri də Bakıya zəng edib. Amma fərqə baxın, Rusiyalı rəsmilər telefon zənglərində azərbaycanlı həmkarlarına deyiblər ki, vəziyyətin gərginləşməsindən narahatıq, amma türkiyəli rəsmilər azərbaycanlı həmkarlarına açıq şəkildə deyiblər ki, Azərbaycanın haqq mübarizəsində Türkiyə Azərbaycanın yanındadır. Bu, özü Rusiya ilə Türkiyənin arasında Azərbaycanın ərazi bütövlüyünə baxışlarında fərqi göstərir. Müharibənin alovlanması bir məsələni ortaya çıxardı. Güney Azərbaycanda azərbaycanlılar Qarabağda başlanan müharibəyə reaksiya verdilər. Bu, həm İran hakimiyyətinə, həm də Ermənistana bir mesajdır. Güney azərbaycanlılar reaksiyaları ilə göstərdilər ki, Qarabağı öz torpaqları sayırlar və onlar Qarabağı işğal edən dövlətlə Tehranın isti münasibətlər qurmasının əleyhinədirlər. Ermənistan əmin olacaq ki, sabah müharibə daha da böyüsə, güney azərbaycanlılar Arazın bu tayına keçib Azərbaycan dövlətinə kömək edə bilərlər".

ATƏT-in Minsk Qrupunun aprelin 4-də Vyanada Qarabağ məsələsi ilə bağlı toplantısından gözləntilərə gəlincə, E.Şahinoğlu bildirdi ki, indi müzakirə olunacaq bir mövzu olmalıdır - Ermənistan ordusu ən azı işğal edilmiş 5 rayondan çıxarılsın: "Əgər Minsk Qrupu məsələni bu şəkildə qoymasalar və buna nail olmasalar atəşkəs daim pozulacaq. Özü də bir məsələ var ki, 1994-cü ildə Bişkekdə atəşkəs sazişi imzalananda biz üzərimizə belə bir öhdəlik götürməmişik ki, əbədiyyətə qədər bu atəşkəsə riayət edəcəyik. Orada yazılırdı ki, atəşkəsdən sonra sülh müqaviləsi imzalanmalıdır. Sülh müqaviləsinin isə başlıca şərti BMT-nin Qarabağ məsələsi ilə bağlı məlum 4 qətnaməsinin yetirilməsi və erməni qoşunlarının Dağlıq Qarabağ ətrafındakı torpaqları boşaltmasıdır. Ona görə də bizim haqqımız çatır ki, cəbhədə üstünlüyümüzü genişləndirək və heç bir beynəlxalq təşkilat bizə mane ola bilməz. İki gün ərzində savaş və ordumuzun irəliləməsi diplomatik mənada xeyirimizədir. Bu hadisə bütün beynəlxalq aləmin diqqətini Qarabağ məsələsinə, Dağlıq Qarabağ ətrafındakı rayonların azad edilməsinin zəruri olduğuna yönəldib. Hər kəs görür ki, döyüşlər Dağlıq Qarabağ ətrafındakı bölgələrdə gedir. Biz hazırda bütün danışıqlarda 5 rayonun qeyd-şərtsiz azad olunması məsələsini qaldırmalıyıq. Azərbaycan Minsk Qrupuna bildirməlidir ki, ilkin olaraq beş rayondan erməni qoşunları çıxarılmayacaqsa, biz atəşkəsə riayət edəcəyimizə zəmanət vermirik".

Ekspert onu da vurğuladı ki, əslində indiki vəziyyət Ermənistan hakimiyyətinə dolayısı ilə sərf edir: "Ermənistan cəmiyyətində, Qarabağda yaşayan ermənilərdə vəlvələ yaranıb. Belə vəziyyətdə Ermənistan hakimiyyəti üçün də imkan yaranıb ki, cəmiyyətə mesaj versin ki, artıq bizim ayrı yolumuz qalmayıb, biz Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə təminat almaq üçün Dağlıq Qarabağ ətrafındakı rayonlardan geri çəkilməliyik. Bu halda cəmiyyətdən də təpki görməzlər".

E.Şahinoğlu onu da dedi ki, Azərbaycan üstünlük əldə etməsindən maksimum yararlanmalıdır: "Bu şansdan istifadə etməli və hərbi üstünlüymüzü davam etdirməliyik. İndi dayansaq, biz növbəti dəfə istəsək də, hərbi üstünlüyümüzü artırmaq bir az çətin olacaq. Əməliyyatı mümkün qədər irəlilətmək lazımdır".

Hərbi ekspert, istefada olan polkovnik Üzeyir Cəfərov isə hərbi nəticələrdən danışdı. O bildirdi ki, son günlər Qarabağ cəbhəsindəki hərbi əməliyyatların hərbi nəticələri Azərbaycanın xeyrinədir: "Azərbaycan silahlı qüvvələri şəhidlər versə də, ordumuz üstünlük əldə edib. Azərbaycan ordusu öz uğurlu əməliyyatlarını davam eləməlidir. Çünki düşmən qısa müddətdə çox panik vəziyyətdədir. Müharibə dövründə qarşı tərəfin belə vəziyyətə düşməsi bizim üçün çox mühüm üstünlükdür. Son günlərdəki hərbi əməliyyatların ciddi nəticələrindən biri budur. Düşmənin havadarları da artıq o qədər narahatdırlar ki, bir-birinin ardınca Azərbaycana müraciətlər ünvanlayırlar. Nə qədər ki, yerimizdə sakit oturmuşduq, belə deyildi. Azacıq hərəkətə keçdik və bu üstünlükləri əldə etdik. Azərbaycan ordusu bu sınaqdan çox yaxşı çıxdı. Bu, yaxşı bir nəticədir. Azərbaycan torpaqlarının işğalda qalacağı ilə barışmadığını çox ciddi şəkildə nümayiş etdirdi. Mən o əraziləri çox yaxşı tanıyıram. Hesab edirəm ki, ordumuz üzərinə düşən imkanlardan da daha çox məsələləri həll edib. Seysulan yaşayış məntəqəsinin ərazisi çox böyükdür. Lələtəpə yüksəkliyini keçmək üçün əsgərlərə təpər lazımdır. Ordu bu sınaqdan normal çıxdı. Şərəfsiz beynəlxalq təşkilatlara, Minsk Qrupuna məhz bunu nümayiş etdirdik. Onlar bilməlidir ki, qısa zamanda işğalçı Ermənistana təzyiq edib işğal etdiyi torpaqlardan geri çəkilməsinə nail olmasalar, bölgə çox böyük müharibə ilə üz-üzə qalacaq".

❑ **Etibar SEYİDAĞA**

---

# Düşmənimizin dostu dostumuzun düşmənidirsə, bizə dost olarmı?



**Xalid KAZIMLI**

**Dünəndən bəri bir gözümüz də dünya mediasında Qarabağ müharibəsinə dair yazılar axtarır. Burada məqsəd o deyil ki, öz mediamız ictimaiyyətə operativ və doğru-dürüst xəbər vermir, ona görə başqa ölkələrin mətbuatından daha səhih xəbərlər almaq istəyirik.**

Elə deyil. Məqsəd xəbər almaq deyil, mövqe öyrənməkdir.

Biz dünya mediasını bu günlərdə ona görə diqqətlə izləyirik ki, görək qızışmış savaşa münasibətdə kim kimin yanındadır, hansı ölkənin mediası konfliktə necə yanaşır, kim obyektiv xəbərlər verir, kim bu qovğada hansı tərəfin haqlı olduğunu düşünür.

Bu iki günün media icmalı göstərdi ki, Rusiya mətbuatı tam olaraq (xırda istisnalar həmişə olur - bu heç) ermənilərin tərəfindədir. Onların məsələyə yanaşması, konfliktin tarixinə dair yazdıqları yalnız ermənilərə sərf edən prizmadandır. Başqa sözlə, rus mediası Qarabağ münaqişəsinə dair xəbərləri "Ermənilərin haqq işi" xəyali rubrikası altında yayır.

Biz rusiyalı jurnalistlərin nə dərəcədə obyektiv olduqlarını 1988-89-90-91-ci illərdən bilirik. O zaman da bir neçə vicdanlı jurnalistdən başqa yerdə qalanların hamısı hər kəsə bəlli faktları baş-ayaq, təhrif olunmuş şəkildə öz qəzetlərində, teleməkanda yayırdılar. Məsələn, öz kəndini erməni quldurlarından qoruyan azərbaycanlılar "boyevik" (yaraqlı), daima kəndlərə soxulub mülki insanları qırmağa çalışan ermənilər isə "narodnıe opolçentsı" (xalq könüllüləri) adlandırılırdı. Olurdu ki, ermənilər bir kəndə cumub adam öldürür, mal-qara aparır, yanğın törədirdilər, ertəsi gün bu xəbər mərkəzi televiziyada belə təqdim olunurdu: "Azərbaycanlı yaraqlılar erməni kəndinə hücum ediblər".

Söz yox, burada təkcə jurnalistlərin şəxsi simpatiya və antipatiyası rol oynamırdı, onlar yuxarıdan verilən tapşırığa əsasən hərəkət edir, ümumi tendensiyanın, konyukturanın nədən ibarət olduğunu bilirdilər. Ancaq bu jurnalistlərin içində sırf tut arağına, Sevan gölündən tutulmuş işxan (forel) balığının kababına və erməni diasporu tərəfindən ciblərə qoyulan içi pulla dolu zərflərə görə erməniləri haqlı sayanlar daha çox idi. Bir də onlar büruzə verməsələr də dini mənsubiyyət birgəliyinə görə ermənilərə isti, azərbaycanlılara yabançı kimi baxırdılar. Acı həqiqətlər, dəhşətli gerçəkliklər ortada qalmışdı, rusiyalı jurnalistlər onları heç vaxt görmürdü.

25-27 il öncə Moskvanın Qarabağ münaqişəsində tutduğu ədalətsiz mövqenin sonu, bilirsiniz, necə oldu. SSRİ süqut etdi, Moskvanın tifağı dağıldı. O boyda qırmızı imperiya ermənilərin Qarabağ sevdasının güdazına getdi. Ermənilərin "Miatsum" ideyası və Kremlin qərəzli mövqeyi SSRİ-ni neylon coraba döndərdi, bu corabın ilməsinin Qarabağda qaçması ilə nəhəng imperiya sökülə-sökülə getdi. Təsəvvür edin, Moskvanı şantaj etmək üçün SSRİ-dən ayrılmaq tələbini ilk dəfə ermənilər qaldırmışdı (bundan başqa, ermənilər "Zaman" xəbərlər proqramının yayımını kəsmişdilər, "Pravda" qəzetini tabutda basdırmışdılar və bununla da SSRİ rəhbərliyinin dişsizliyini hər kəsə göstərmişdilər), sonradan bütün müttəfiq respublikalar Moskvadan qopdu, axıra təkcə ermənilər qaldı. Ermənistan hələ də qeyri-rəsmi olaraq Rusiyanın federal obyektlərindən biri kimidir.

İndi biz yenə də rusiyalı jurnalistlərin qərəz dolu yazılarını, şərhlərini oxuyuruq və təəccüblənmirik. Bu stil bizə onların son illərdə Ukraynada baş verən hadisələri işıqlandırmalarından da bəllidir. Rusiyalı jurnalistlər eyni axırıncı yolu Suriya və Liviya münaqişələrində də tutublar - daima haqsız, zalım müstəbidlərin, hərbi aqressorların yanında olmaqla. Bu hərəkətləri ilə onlar bizi aldatmırlar, biz həqiqəti bilirik, rusiyalı jurnalistlər öz xalqını, öz oxucularını aldadır, onları çaşdırır, yanlış rəylər yaradırlar. Bu yanlış ictimai rəylərin isə heç nəyə real təsiri yoxdur. Çünki Rusiyada ictimai rəyin dövlət siyasətinə təsiri sıfırdır. Onsuz da ictimaiyyətin əsas fikrinin nə olmasından asılı olmayaraq, prezident Putin həmişə öz bildiyini yeridir.

Rusiya mediasının monitorinqi bizə pıçıldayır ki, RF prezidentinin Azərbaycan dövlətini idarə edənlərə orden-medal paylamasına baxmayın, Kreml 1988-ci ildə götürdüyü kursa sadiqdir. O kurs təxminən bundan ibarətdir: Ermənistanı ağuşa alıb bəsləmək, qorumaq, yeri gələndə qızışdırmaq, qısqırtmaq, Azərbaycanın biləyindən sağ əllə möhkəm yapışıb uzaqlaşmağa, sərbəst hərəkət etməyə qoymamaq, vaxtaşırı üstünə təpinmək, ağuşdakıyla dalaşanda qolunu tutub döydürmək və s.

Dostumuzu, düşmənimizi, eləcə də dostumuzun düşmənini, düşmənimizin dostunu, hətta dostumuzun dostunu və düşmənimizin düşmənini yaxşı tanıyaraq, istiqabalımızı bu bilgilər əsasında təmin etməliyik.

Hələlik vəziyyət belədr: Düşmənimiz Ermənistanın dostu Rusiya böyük dostumuz Türkiyənin düşmənidir və özünü bizə dost göstərir. Sizcə, mümkündürmü? (İstəyənlər fikirlərini yazının (elektron versiyada) altındakı şərh bölümünə yaza bilərlər).



Natiq Cəfərli



Qubad İbadoğlu

# Hərbi əməliyyatlar regional layihələrə də təsir göstərə bilər, amma...

## Ekspertlərə görə, bu, əraziləri qaytarmaq üçün Azərbaycana əlavə şans verir

**Ölkədə, cəhbə xəttində baş verən hərbi əməliyyatlar iqtisadi layihələrlə bağlı da bir çox suallar yaradır. Hazırda əməliyyatlar Azərbaycan tərəfindən birtərəfli qaydada dayandırılsa da, bu cür əməliyyatların və ehtimal olunan müharibənin regional layihələrə təsiri də müzakirə mövzusudur. Ekspertlər musavat.com-a bununla bağlı proqnozlarını açıqlayıblar.**

Ekspert Natiq Cəfərli bildirib ki, müharibə regional layihələrə ciddi təsir göstərə bilər: "Təbii ki, təsiri olacaq. Ortada 1994-cü ilin təcrübəsi var. 1994-cü ildə atəşkəsin elan olunması konsorsiumun əsas tələblərindən biri idi. Həm böyük müqavilənin, "Əsrin müqaviləsi"nin iştirakçısı olan ölkələrin və şirkətlərin əsas tələblərindən biri idi ki, "Bakı-Ceyhan" neft kəməri ilə bağlı heç bir problem yaşanmasın. Və təbii ki, böyük bir layihə olan Cənub Qaz Dəhlizi layihəsinin də həmin münaqişə bölgələrinə, işğal altındakı torpaqlarımıza yaxın bir yerdən keçməsi və gələcəkdə belə bir ehtimalın olması, müharibənin olması ehtimalı konsorsium iştirakçılarını ciddi şəkildə əndişələndirəcək, bu sual meydana çıxacaq. Böyük layihələrin gələcəkdə fəaliyyət göstərməsi üçün sabitliyin olması və müharibə şəraitinin olmaması, sülh çox vacibdir.

Amma Azərbaycanın da özünün bir cızdığı cizgiləri var. Azərbaycan da işğal altında olan torpaqları 25 ilə yaxındır ki, işğaldan azad edə bilmir. Torpaqları azad etmək hüququndan istifadə etməlidir. Əslində Azərbaycan hökuməti üçün bu şəraitdən çox məharətlə istifadə etmək şansı yaranıb. Bu şansı əldən verməmək lazımdır. Əgər o ölkələr Cənub Qaz Dəhlizi layihəsinin işləməsini istəyirlərsə, paralel olaraq münaqişənin həllini də həmin ölkələrin obrazlı desək, boynuna qoymalıdır. Əgər Avropa dövlətlərinə Azərbaycan qazı lazımdırsa, münaqişə gələcəkdə boru kəmərlərinə problem yarada bilərsə, məsələ qoymaq lazımdır və kəskin şəkildə bildirmək lazımdır ki, işğal altında olan torpaqlar azad olunsun. Bu münaqişənin ən azından infrastrukturdan daha da aralanmasına xidmət etməlidir. Yəni şəraitdən bu cür də istifadə etmək mümkündür".

Ekspert Qubad İbadoğlu isə qeyd edib ki, ölkəyə maraq göstərən investorlar bu fakta da diqqət çəkəcəklər: "Amma mövcud layihələrə təsir edəcəyini ehtimal etmirəm. Həm mədən sənayesi sektorunda, həm digər sahələrdə Azərbaycanın daxil olduğu layihələr davam edəcək. Amma nəzərə almaq lazımdır ki, belə hadisələr investorların diqqətində olur. Bu məsələlər Azərbaycanla bağlı qərar qəbul etmək istəyində olan investorların diqqətindən qaçmayacaq. Hesab edirəm ki, eyni şeyi Ermənistanla da bağlı demək olar. Çünki Ermənistan da təbii ki, bu istiqamətə - investorların ölkəyə marağı məsələsində müəyyən əziyyət çəkəcəklər. Amma Ermənistan iqtisadiyyatı onsuz da investorlar üçün çox da maraqlı deyil. Amma Azərbaycanda xüsusilə də qeyri-neft sektoruna xarici investisiyanın yatırılmasına ehtiyac var. İndiki halda fikrim ondan ibarətdir ki, enerji layihələri, mədən sənayesi layihələrində heç bir dəyişiklik olmayacaq. Yəni onlar artıq onsuz da imzalanıb. Müəyyən mərhələlər başa çatdırılıb və bundan sonrakı mərhələdə də xarici investorların bu sahədəki iştirakında ciddi dəyişiklik gözləmirəm. Amma sabah Azərbaycan özəlləşdirməyə gedərsə, xüsusilə də böyük şirkətlər özəlləşdirməyə çıxarılarsa, investorlar bunu risk faktoru kimi, risklərdən biri kimi dəyərləndirə bilərlər. Dövlətin də bu istiqamətdə fəaliyyətini təqdir edirəm. Hər bir halda, investisiya riskinə, mənfi təsirlərinə baxmayaraq, Azərbaycanın itirilmiş topraqlarının geri alınması istiqamətində fəaliyyəti davam etməlidir".

❑ Röya RƏFİYEVA

# Mahmudovçular "Altes Group"un 10 mənzilini ələ keçirmək istəyiblər - ilginc detallar

## Şirkətdən bu gün də hədə-qorxu ilə 1 milyon 200 min tələb olunur!!!

**"Polad Qabulov bundan əvvəl bizi MTN-in Antiterror Mərkəzinin rəis müavini, sonradan həbs olunaraq özünü asan İlqar Əliyevlə hədələyirdi. Qabulov tələb edirdi ki, şirkətin inşa etdiyi binadan 10 mənzili onun adına rəsmiləşdirək. Deyirdi ki, həmin mənzillər sonradan İlqar Əliyevin adına rəsmiləşdiriləcək" - bu sözləri "Nur" İnsaat ("Altes Group") şirkətinin direktoru Rüstəm Abdullayev deyib.**

Onun sözlərinə görə, hazırda axtarışda olan "Altes Group"un sabiq vitse-prezidenti Polad Qabulov hazırda Dubayda gizlənir. Onun barəsində Yasamal Rayon Polis İdarəsinin İstintaq Şöbəsində 2013-cü il dekabrın 16-da dələduzluq faktına görə cinayət işi başlanıb. Həmin gün Dubaya gedən P.Qabulovun şirkətə 300 min manat ziyan vurması haqda 1 gün sonra Yasamal Məhkəməsi qərar verib. Məhkəmənin digər qərarına görə P.Qabulov "Altes Group"a 700 min manat ödəməlidir. Həmin məbləği o, şirkətdə çalışdığı dövrdə mənimsəyib.

R.Abdullayev comments.az-a açıqlamasında bu gün də şantaj olunduqlarını, Polad Qabulovla idmançı Vüqar Namazovun birləşərək şirkətə qarşı qaralama kampaniyası apardıqlarını açıqlayıb: "Bu gün Polad Qabulov Vüqar Namazova vaxtilə çalışdığı şirkəti qaralayan məlumatlar ötürür. O da öz şəxsi maraqlarının təmin olunması üçün bizə qarşı çirkin kampaniya aparır. Polad Qabulov vaxtilə irəli sürdüyü qanunsuz tələbi yerinə yetirmədik deyə bu gün də şirkətə qarşı şantaj yolunu tutub. O vaxt mənə tez-tez zəng edib hədələyirdi, deyirdi ki, 10 mənzili adına keçirməliyik. Təbii ki, biz də qanunsuz tələbi yerinə yetirməkdən imtina edirdik. Həmin vaxt günlərin birində bizim iki işçimiz Mais və Abdulsalam gəlib Qabulovun ultimatumunu çatdırdılar. Qabulov deyirdi ki, əgər tələbi yerinə yetirilməsə, başımıza çuval keçirib aparacaqlar və tələb etdi ki, 10 mənzili adına rəsmiləşdirək. O vaxt mən risk etmək istəməyib ölkəni tərk edərək Qazaxıstana getdim, oradan şirkətin sahibi, möhtərəm prezidentin əmisi oğlu Fərid Əliyevə zəng edərək baş verənlər haqda onu məlumatlandırdım".



R.Abdullayev deyir ki, Vüqar Namazovun qaçaq vitse-prezidentə dəstək verməsinin özəl səbəbləri var. Belə ki, o, 2014-cü ildə şirkətə daxil olan Yasamal rayonu, B.Bağırov küçəsində yerləşən "Emerald Palace" yaşayış kompleksində tikilini icarələyib.

Bütün bu oyunlar 2014-cü ildə başlayıb. "Nur" İnşaat şirkəti Vüqar Namazovun adamı olan Ceyhun Vəliyevlə müqavilə bağlayıb. Həmin müqaviləyə görə Namazov 2014-cü ilin sentyabrından 2019-cu ilin sentyabrına qədər hər ay kirayələdiyi tikiliyə görə 9 min manat icarə haqqı vermə öhdəliyini üzərinə götürüb. İcarəyə verənlə müqavilə bağlanarkən bütün danışıqları Vüqar Namazov şəxsən aparıb. Şərtləri razılaşdırılandan sonra isə müqaviləni formal olaraq Namazovun adamı Ceyhun Vəliyev imzalayıb. Sonradan isə Namazov müqaviləni həyat yoldaşının adına rəsmiləşdirib. Bütün bunlar tikilidə fəaliyyətə başlamış fitnes klubun sahibinin şəxsən Vüqar Namazovun olduğunu deməyə əsas verir. Həmin tikilini V.Namazova icarəyə verəndə Fərid Əliyev, Rüstəm Abdullayev onun Vergilər Nazirliyinin əməkdaşı olmasını bilməyiblər. V.Namazovun özü də bu haqda danışmayıb, hər yerdə özünü idmançı kimi təqdim edib. Bunu ona görə edib ki, qanuna görə onun dövlət qurumunun əməkdaşı olaraq bizneslə məşğul olması yasaqdır. Rüstəm Abdullayev deyir ki, tikilini V.Namazova icarəyə verdikdən az sonra onun icarə haqqı vermək fikrində olmadığını yəqinləşdiriblər: "2014-cü ilin mayında bizə müraciət edərək ona tikilini icarəyə verməyimizi xahiş etdi. O vaxt özünü idmançı kimi təqdim edirdi. Deyirdi ki, özünün biznesini yaratmaq istəyir, icarə haqqını da vaxtında ödəyəcəyini vəd edirdi. Müqavilənin şərtlərinə görə o, 2015-ci ilin oktyabrına qədər tikilinin təmirini yekunlaşdırmalı idi. Lakin o, təmiri yekunlaşdıra bilmədi. Biz ona təmiri yekunlaşdırmaq üçün əlavə 3 ay verdik. Ondan 3 ay icarə haqqı istəmədik".

Bu müddət ötəndən sonra da V.Namazov icarə haqqını ödəməyib. Bunu təmir xərcləri ilə əlaqələndirib. Bu isə müqavilə şərtlərinə zidd olub. Nəhayət, 2015-ci ilin iyun ayından icarə verən tərəf V.Namazovdan icarə haqqını qəpik-qəpik də olsa almağa başlayıblar. Sonrakı 6 ay ərzində V.Namazovun icarə verənlərə 54 min manat borcu yaranıb. Halbuki həmin müddət ərzində V.Namazovun fitnes klubunda 1200 nəfər müştərisi olub. Həmin müştərilər hər ay üçün ona 80 manat pul ödəyiblər. Yəni V.Namazovun 96 min manat gəliri olduğu halda o, icarə haqqını yarımçıq ödəyib. R.Abdullayevin sözlərinə görə V.Namazovun ayrı-ayrı banklara 600 min manat borcu var: "Bütün baş verənlərdən belə nəticəyə gəlirəm ki, Vüqar Namazov bütün yalanları və doğruları ilə məhz banklara olan borclarını ödəmək üçün 1 milyon 200 min manat tələb edir. Bizə də deyir ki, guya tikilidə təmirə məhz 1 milyon 200 min manat ödəyib. O, yalan danışır. Mən həmin tikilidəki təmirə nə qədər pul xərcləndiyini müəyyən etmək üçün audit təyin etməyə hazıram. Ora maksimum 200 min manat pul xərclənib. Həmin pulu da ödəməyə hazırıq. Təki icarə müqaviləsinin şərtlərinə əməl etməyən bu şəxs tikilini boşaltsın. Üstəlik müqavilənin şərtlərinə görə bizim birtərəfli qaydada müqaviləni ləğv etmək səlahiyyətimiz var".

R.Abdullayevin sözlərindən aydın olur ki, biznesmen - Vergilər Nazirliyinin işçisi təkcə icarə haqqını deyil, fitnes klubda istifadə edilən elektrik enerjisinin haqqını da ödəməyib. Ona görə də fitness klubun elektrik enerjisinə görə 17 min manat borcu yaranmışdı. Biz isə binanın sahibləri məsələni belə qoya bilməzdik. Ona görə də özü cibimizdən Vüqar Namazovun "Bakıelektrikşəbəkə"yə olan borcunu ödəyib sakinləri fasiləsiz elektrik enerjisi ilə təmin etdik".

Lakin bu da Namazovu dayandırmayıb. O, elektrik enerjisi kəsiləndən sonra fitnes-klubun fəaliyyətini davam etdirmək üçün əraziyə generator gətirdərək quraşdırıb. Klubun qızdırılmasını, trenajorların işləməsini təmin edən Namazov bina sakinlərinin onun borcuna görə işıqsız qalmalarını "unudub".

Şirkətin direktoru deyir ki, V.Namazov 6 ay fitness klubdan gəlir əldə etsə də, VÖEN-siz fəaliyyət göstərib, bununla da Vergilər Nazirliyinin işçisi vergi ödəməkdən yayınıb. Şirkət onu müqavilə üzrə öhdəlikləri yerinə yetirmədiyinə görə məhkəməyə verdikdən sonra isə fitnes klubu həyat yoldaşının adına rəsmiləşdirib. Başqa sözlə desək, Vergilər Nazirliyinin işçisi qanunsuz sahibkarlıqla məşğul olub. Bu isə Cinayət Məcəlləsinin 192-ci maddəsi ilə barəsində cinayət işi başlamasına əsas yaradır. Şirkət V.Namazovu məhkəməyə verəndən sonra o, daha artıq inadkarlıq göstərməyə başlayıb. Şirkət rəhbərliyinə bildirib ki, mətbuat üzərindən onları biabır edəcək. Hətta "Altes Azerbaycan"ın facebook sosial şəbəkəsində saxta səhifəsini yaradaraq orada V.Namazovun barəsində hər cür yalan, böhtan məlumatlar yerləşdirməkdən çəkinmir. R.Abdullayevin Eldar Mahmudovla "əlaqələri" haqda yalan məlumatlar yazaraq yaymaqla "Altes Group"un işgüzar nüfuzuna zərbə vurmaqda davam edir.

Qeyd edib ki, baş verənlər haqda Vergilər Nazirliyinin İstintaq İdarəsinin rəisi Vüqar Məmmədzadə də məlumatlandırılıb. V.Namazov məsələ ilə bağlı comments.az-a münasibət bildirməyib.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 70 (6391) 4 aprel 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Sülh danışıqlarını dalandan çıxarmaq əvəzinə, yeni eskalasiya - müharibə kimə sərfdir?

## Cəbhə xəttindəki son genişmiqyaslı toqquşma dinc nizamlanmaya alternativ olmadığını, danışıqlarda ləngimənin ağır nəticəyə gətirə biləcəyini kəskinliklə ortaya qoydu; **rusiyalı ekspert:** "Ermənistan təcili şəkildə ən azı, 5 rayonu qaytarmalıdır..."

**Ötən həftəsonu Vaşinqtonda keçirilən IV Qlobal Nüvə Təhlükəsizliyi Sammiti Dağlıq Qarabağ probleminin diqqətdə saxlanması kontekstində də əlamətdar oldu. Xüsusən də Azərbaycan prezidenti İlham Əliyevin Amerikanın ali rəhbər şəxsləri ilə keçirdiyi görüşlər ekspertlərin də söylədiyi kimi, bəzi nikbin ümidlər yaradır.**

Bəs sammit çərçivəsində reallaşan görüşlərin Güney Qafqazın ən üzücü münaqişəsinin nizamlanması prosesinə təsiri hansısa formada özünü göstərəcəkmi? Hələlik bunu söyləmək çətindir. Hər halda ABŞ prezidenti Barak Obama Azərbaycan və Ermənistan prezidentlərini bir araya gətirməsi üçün müəyyən şansa malik idi və belə bir təmas baş tutardısa, məsələ ilə bağlı daha konkret fikir söyləmək mümkün olardı.

Bir şeyi dəqiqliklə qeyd eləmək olar ki, ABŞ rəsmiləri ilə təmaslar istər Amerika olsun, istərsə də bölgə və Qərbin maraqları, o sırada energetik, təhlükəsizlik maraqları və terrorla mübarizə məsələsi - regionun lider ölkəsi kimi Azərbaycanın önəmini təsdiqləmiş oldu. Ümid edək ki, bu önəm rəsmi Vaşinqtonun Dağlıq Qarabağ məsələsinə yanaşmasında da özünü pozitiv planda büruzə verəcək.

***

Rusiyalı tanınmış politoloq Qriqori Trofimçuk da hesab edir ki, Qarabağ probleminin həlli birbaşa olmasa da, dolayısıyla bütün regional proyektlərdən asılıdır. Bu barədə o, Rusiya xarici işlər naziri Sergey Lavrovun aprelin 7-də Bakıya nəzərdə tutulan səfərini vesti.az-a şərh edərkən bildirib.

Bəs Lavrovun Qarabağa dair hansısa yeni təkliflə gəlməsi realdırmı? Ekspertə görə, Qarabağ mövzusu heç bir Rusiya-Azərbaycan danışıqlarında diqqətdən kənarda qala bilməz, hətta bu danışıqlar Qarabağ mövzusuna birbaşa aid olmasa belə. "Bu xüsusda hansısa yeni təkliflərdən danışmaq çətindir, çünki biz "köhnə təklifləri" heç birinin reallaşmasını görmədik. Qarabağa dair danışıqlar ətrafında situasiya həmişə olduğu mərhələdədir. Bu yarımdonmuş və sementlənmiş çərçivədən çıxan istənilən təklif prosesə yeni məna verərdi. Yeri gəlmişkən, Qarabağ probleminin həlli birbaşa olmasa da, dolayısıyla bütün regional proyektlərdən asılıdır. O sırada Rusiya, Azərbaycan və İranın iştirakçı olduğu "Şimal-Cənub nəqliyyat dəhlizi" ilə əlaqəlidir. İndi təsəvvür edək ki, bu nəqliyyat dəhlizi həyata keçib, eyni vaxtda Qarabağ ətrafında situasiya kəskinləşib. O zaman bunca səylər nəyə lazım imiş? Ona görə də istənilən böyük beynəlxalq layihə sadəcə, regiondakı siyasi şərtləri təsir etibarilə ciddiyə almağa borcludur" - rusiyalı analitik deyib.

***



Rusiyalı ekspertin fikirləri cəbhə xəttindəki son genişmiqyaslı hərbi toqquşma fonunda xüsusilə aktual görünür. Diqqəti çəkən həm də son eskalasiyanın Azərbaycan prezidentinin uğurlu ABŞ səfərinə təsadüf eləməsidir. Aydındır ki, ABŞ-Azərbaycan yaxınlaşması xüsusilə energetika (təbii qazın nəqli və s.), təhlükəsizlik sahələrini əhatə edir ki, bu da Moskvanın regiondakı köklü maraqları ilə uzlaşmır.

Politoloq Elxan Şahinoğlu isə prezident İlham Əliyevin ABŞ-a səfərini tarixi əhəmiyyətli sayır (Axar.az). Siyasi şərhçi hesab edir ki, sözügedən səfər hər iki dövlətin maraqlarına xidmət edir. Sitrat: "Görüşlərin hər biri Azərbaycan-ABŞ əməkdaşlığı üçün əhəmiyyətlidir. İlk növbədə Kerri-Əliyev görüşünün əhəmiyyətini vurğulamaq lazımdır. Kerrinin birinci mesajı ABŞ-ın Azərbaycanla birgə işlədiyi çoxsaylı ümumi maraq sahələrə aid idi. Kerri Azərbaycanın mürəkkəb regionda yerləşdiyini xatırladaraq Cənub Qaz Dəhlizinin reallaşmasında İlham Əliyevin xüsusi rolunu qeyd etdi. O bildirdi ki, enerji mənbələrinin diversifikasiyası məsələsində Avropanın uzunmüddətli strateji maraqları baxımından Azərbaycan çox vacib rol oynayır. ABŞ şirkətlərinin Azərbaycan iqtisadiyyatına təxminən 10 milyard dollar sərmayə qoyduğunu vurğulayan İlham Əliyev Cənub Qaz Dəhlizinin üzərində xüsusi dayandı. Hazırda amerikalı diplomatlar Avropanın qərar verən müxtəlif mərkəzlərində TAP və TANAP üçün lobbiçilik fəaliyyəti aparmaqla Avropanı Rusiya asılılığından qurtarmağa, eyni zamanda Azərbaycanı şimal və cənubdan təhlükələrdən qorumağa çalışır. Çünki Cənubi Qafqazda güclü Azərbaycanın varlığı ABŞ-ın xeyrinədir".

***

Bu üzdən Qarabağda yeni müharibənin bölgəyə milyard dollarla vəsait yatırmış və yatırmaqda olan Qərbə, yoxsa Rusiyaya əl verdiyi sualı üzərində yəqin ki, baş sındırmağa dəymir. Necə deyərlər, Rusiya ənənəvi ampluasındadır - təmas xəttində yaşanan gərginliyə görə Moskva rəsmilərinin (prezident Vladimir Putin, xarici işlər naziri Sergey Lavrov, müdafiə naziri Sergey Şoyqu) zahiri narahatlığına rəğmən.

Lakin Rusiya tərəfdən situasiyanı adekvat qiymətləndirib optimal çıxış yolu təklif edən ekspertlər də var. Məsələn, Rusiya İctimai Palatasının üzvü, politoloq Sergey Markov hesab edir ki, Dağlıq Qarabağ münaqişəsi zonasında vəziyyətin kəskinləşməsi münaqişənin "dondurulmuş" olmadığını sübut edir və göstərir ki, Ermənistan və Azərbaycan arasında genişmiqyaslı müharibə hər an başlaya bilər".

"Beynəlxalq vasitəçilər, xüsusilə Rusiya münaqişənin sabitləşdirilməsi üçün böyük səy göstərməlidir", - deyə o vurğulayıb. Analitik vəziyyətin sabitləşdirilməsi və münaqişənin həlli üçün təkliflə də çıxış edib: "Ermənistan işğal olunmuş Qarabağ ətrafındakı 7 rayondan 5-ni Azərbaycana qaytarmalıdır. Bundan sonra danışıqlar davam etdirilməlidir. Rayonlar qaytarıldıqdan sonra Türkiyə Ermənistanla sərhədləri açmalı və iqtisadi münasibətlər yenilənməlidir".

Sözsüz ki, hazırkı şərtlər daxilində Moskvanın təzyiqi olmasa, işğalçı Ermənistan Azərbaycanın bir qarış torpağını da azad etməyəcək. Rusiya isə buna tələsmir. Təmas xəttindəki sonuncu genişmiqyaslı toqquşmaya Kreml rəsmilərinin reaksiyası, Azərbaycanla Ermənistana yenə eyni gözlə baxılması buna şübhə yeri saxlamadı.

***

Cəbhə xəttindəki son eskalasiya isə dinc nizamlanma prosesinə alternativ olmadığını, danışıqlarda ləngimənin ağır nəticəyə gətirəcəyini bir daha ortaya qoydu. Sonra gec ola bilər. Bu mənada mövcud durumun doğurduğu ibrət dərslərindən hamıya, o cümlədən Rusiyaya da pay düşür.



Aleksandr Xramçixin



## "Müharibə Qarabağdan kənara çıxmasa, Rusiya qarışmayacaq..."

**Azərbaycan və Ermənistan arasında Qarabağda aprelin 2-də başlayan irimiqyaslı hərbi əməliyyatlar dünya mətbuatının faktiki olaraq bir nömrəli mövzusuna çevrilib. Rusiya mediası, ekspert çevrələri hazırda Qarabağda baş verənlərin təhlilinə geniş yer ayırır.**

Gazeta.ru döyüşlərin xronikasına və tərəflərin bəyanatlarına geniş yer ayırdıqdan sonra ekspertlərin fikirlərinə yer verib (Virtualaz.org). Rusiyanın Hərbi və Siyasi Analiz İnstitutunun direktor müavini Aleksandr Xramçixin hesab edir ki, hazırda Azərbaycanla Ermənistan arasında müharibəni dayandırmaq praktiki olaraq mümkün deyil. ABŞ və Rusiya kimi böyük dövlətlər tərəfindən hərbi əməliyyatların başlanmasına görə səslənən tənqidlərə baxmayaraq beynəlxalq institutların prosesə real təsir imkanları yoxdur.

"Situasiyanı dəyişdirə bilən yeganə tərəf varsa, bu da Rusiyadır"- ekspert deyib. Lakin Xramçixinə görə, əgər hərbi əməliyyatlar Qarabağın hüdudlarından kənara çıxmasa, Rusiya münaqişəyə qarışmayacaq. "Əsas təhlükə bundadır ki, gərginlik çox yüksəkdir. Hərbi əməliyyatlar bu regionun hüdudlarından kənara çıxa və bilavasitə Azərbaycan-Ermənistan sərhədinə keçə bilər. Bax, onda Rusiyanın münaqişəyə qarışması üçün bütün şərtlər yaranacaq" - Xramçixin fikrini tamamlayıb.

Vaşinqtondakı "Gulf State Analytics" şirkətindən aparıcı analitik Teodor Karasik isə hesab edir ki, Suriya böhranının Azərbaycan-Ermənistan münaqişəsinin alovlanmasına təkan verəcəyi əvvəlcədən aydın idi. "Suriyada Türkiyə-Rusiya qarşıdurması, habelə üç ölkə prezidentinin (Azərbaycan, Ermənistan və Türkiyə) Vaşinqtonda olması bu köpüyün partlaması üçün şərait yaratdı"- analitik deyib.

Karasikə görə, Qarabağda eskalasiyaya gətirib çıxaran başlıca amillərdən biri Moskvanın İrəvana hərbi köməyi artırması oldu. Bu da Moskva ilə Bakı arasında münasibətlərin soyumasına gətirib çıxardı. "Bu, martın əvvəllərində, baş nazirin müavini Dmitri Roqozinin Bakıya səfəri zamanı aydın oldu. Roqozin Azərbaycan prezidenti ilə əvvəllər bağlanmış hərbi-texniki əməkdaşlıq müqavilələrini müzakirə etdi" - Karasik bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT N 70 (6391) 4 aprel 2016

# Ədəbiyyatın susmayan vicdanı - Vidadi Babanlı ilə söhbət

## “Mirzə İbrahimov dedi ki, ”sovet adamının vicdanı heç zaman susmaz, bu, yalandır"

## 89 yaşlı yazıçı həyat hekayətindən danışdı: “Hələ də ad vermirlər...”

**İllər öncə bir yeniyetmə marağı ilə onun “Vicdan susanda” əsərini birnəfəsə oxuyanda bir gün üzbəüz oturub söhbət edəcəyim, bu əsərin necə ərsəyə gəlməsi, onun həyatı və yaradıcılığı ilə bağlı müsahibə alacağım ağlımın ucundan belə keçməzdi. Yəqin ki, söhbətin kimdən getdiyi sizə məlum oldu, ədəbiyyata “Vicdan susanda” damğasını vurmuş yazıçı Vidadi Babanlı...**
**O zaman kitab bizim üçün o qədər böyük məfhum idi ki, onu yazanı da əlçatmaz və qeyri-adi bir insan hesab edirdik. Artıq o vaxtdan illər keçib, ölkənin bir çox tanınmışları ilə müsahibə almışam. Lakin yenə də Vidadi Babanlı - məktəb illərimin sevimli yazarı ilə görüşün başqa bir həyəcanı var.**

***

89 yaşlı yazıçının Nərimanov rayonunda yerləşən evində bizi onun ailə üzvləri qarşılayır və bildirirlər ki, neçə gündür bizi həyəcanla gözləyir. Otağa daxil olub yatağında oturan Vidadi Babanlı ilə görüşürük. 8 ay önsə ayağı sınan yazıçı hələ də xüsusi dəmir tutacağın köməyi ilə yeriyir. Divarları başdan- başa kitab olan bu kiçik otaqda onun bir çarpayısı, bir də yazı masası var. Lakin dediyinə görə, bu masa aylardır boş qalıb və səhhəti orada oturub işləməyə imkan vermir.

Müsahibimlə hal-əhval tuturam. Deyir ki, yeriyə bilməmək onu üzür: “Bu yay mənim üçün çox ağır keçdi. O vaxtdan bəri yeriyə bilmirəm. Bundan başqa səhhətimdə elə bir problem yoxdur. Ancaq yaradıcılıqla məşğul ola bilməmək məni sıxır. Çünki 8 aydır yazı masama yaxın gedə bilmirəm. Təzə roman başlamışdım, iyul ayından sonra yarımçıq qaldı. 73 səhifə yazmışam, davamı qalıb. Gözlərim də zəifləyib. Yazanda öz xəttimi görmürəm, fəhmlə yazıram, bəzən yazılarım bir-birinin üstünə çıxır. Bu da qocalığın əlamətidir”.

### “Atamdan ilk silləni ondan yedim”

Vidadi Babanlının yaşı 90-a çatmaqda olsa da, insanı təəccübləndirən onun amiranə, pafoslu səs tembrinin hələ də 50 yaşlı bir insanın səsi kimi cavan qalmasıdır. Danışarkən də yazıçı xırdaçılığı ilə hər bir xatirəsini detallarına qədər danışır və saatlarla insanın diqqətini özündə saxlamağı bacarır.

Müsahibim bizə ədəbiyyata gəlişindən söz açır. Deyir ki, uşaq yaşlarından şeir yazıb, ara-sıra “Pioner” jurnalında da onun şeirləri çap olunub. Lakin atası onun şair olacağına inanmadığı üçün məktəbi bitirdikdən sonra sənədlərini Tiflisdə Zaqafqaziya Dəmiryol İnstitutunun Azərbaycan şöbəsinə verir. Gənc Vidadi yaradıcılıq həvəsini öldürə bilmədiyi kimi, bu məktəbdə də uzun müddət qala bilmir və birinci kursu bitirəndən sonra ailəsindən gizli şəkildə sənədlərini Bakı Dövlət Universitetinin yeni açılan filologiya fakültəsinə verir və qəbul olur. Atası isə bunu eşidəndə heç zaman əl qaldırmadığı oğlunu bir sillə ilə cəzalandırır. Sonradan onun əsərlərini jurnallarda oxuyanda isə bu sillə alqış məktubları ilə əvəz olunacaqdı...

Bu fakültə onun üçün həm də yaradıcılıq mühiti olur və ədəbi fəaliyyətinə başlayır. Bu illərdə onun “Dönüş”, “Təbrizdə bir gecə” poemaları çap olunur. İlk irihəcmli əsəri isə “Gəlin” povesti olur. Yazıçı deyir ki, onu əvvəlcə poema şəklində şeirlə yazır, daha sonra bunun şeirə sığmayacağını görüb nəsrə çevirir. O vaxtdan bütün əsərlərini nəsrlə yazmağa başlayır və bir neçə iri həcmli romanlar yazır. “Həyat bizi sınayır” povesti də uğur qazanır və əsərin motivləri əsasında film də çəkilir. Bu əsəri yazmaq üçün 1 il Sumqayıtda işləyir və fəhlə yataqxanasında qalır. Əsərdə Sumqayıtı qurub yaradan fəhlələrin həyatından bəhs edir.



### “Vicdan susanda”ya görə təzyiqlər: “Sovet adamının vicdanı heç vaxt susmaz”

“Uzun müddət idi ki, ”Vicdan susanda"nın süjet xətti beynimdə idi. Əsər kimyaçı alimlərin həyatından bəhs edir. Ekoloji cəhətdən ziyansız benzinin kəşf edilməsi, havanın təmizliyi məsələsi... Bu əsəri yazdım, lakin ad məsələsinə görə, məni möhkəm sıxdılar. O vaxt partiya iclasında mənim məsələmi qoydular. İclasa yazıçı Mirzə İbrahimov sədrlik edirdi. Mirzə İbrahimov dedi ki, “sovet adamının vicdanı heç zaman susmaz. Bu, yalandır, sovet cəmiyyətinə, ziyalılarına böhtandır”. Şair Nəriman Həsənzadə də partiya təşkilatının katibi idi. Mirzə İbrahimovla Nəriman Həsənzadə əvvəldən danışmışdılar ki, məni partiyadan çıxartsınlar. Partiyadan çıxmaq isə son demək idi, nə əsərin çap olunacaq, nə harada sənə iş veriləcək, nə də cəmiyyətdə qəbul olunacaqsan. Əli Vəliyev buna etiraz elədi, bir Rəsul Rza dedi ki, cavandır, buna belə cəza vermək olmaz, töhmət verilsin. Mirzə İbrahimov razılaşmadı, dedi ki, cəza verilməlidir. Belə dəyəndə, mən də bərk qəzəbləndim və partiya biletimi götürüb Mirzə İbrahimovun üstünə atdım. Dedim ki, bir partiya ki, haqqı müdafiə eləmir, onun üzvü olmaq mənə lazım deyil. Bilet diyirlənib Mirzə ibrahimovun ayağının altına düşdü və hamı susub qaldı. Mən durub qapını çırpıb getdim".



### “Mirzə İbrahimovla münasibətim Əkrəm Əylisliyə görə pozulmuşdu”

“Gedib hirsli şəkildə SSRİ Mərkəzi Komitəsinin birinci katibi Brejnevə məktub yazdım ki, burada məni sıxışdırırlar, mənim Qafqaz ölkələrindən birində yaşamağıma icazə verilsin. Bundan sonra məsələ daha da ciddiləşdi. Mirzə İbrahimovla münasibətimin pozulması isə Əkrəm Əylislinin əsərinə görə olmuşdu. O zaman mən ”Azərbaycan" jurnalının nəsr əsərləri üzrə şöbə müdiri işləyirdim və bütün nəsr əsərləri mənim razılığımla çapa gedirdi. Jurnalın planını iki ay əvvəl tuturduq. 12-ci sayın çapına az qalmış müzakirə edirdik. Mən Əkrəm Əylislinin “Mənim nəğməkar bibim” əsərini nömrəyə vermək istəyirdim. Onda Əkrəm Moskvada oxuyurdu. Əsər neçə ay idi ki, çapa gecikirdi. O zaman Mirzə İbrahimov jurnalın redaktoruna demişdi ki, onun yazmaqda olduğu əsər üçün 12-ci nömrədə yer saxlanılsın. Mən onun əsərini yox, Əkrəm Əylislinin əsərini nömrəyə verdim. Sonra məni kabinetinə çağırdı və danladı ki, sən çox yekəbaşlıq edirsən və söz eşitmirsən".

### “Əkrəm Əylisli son vaxtlar bir az sarsaqladı”

Ağsaqqal yazıçı deyir ki, onun o vaxt müdafiə etdiyi yazıçı son əməli ilə onu məyus edib: “Əkrəm cavanlıqda da çox dəlisov idi. Əsəbiləşir, coşur, özündən çıxır, dalaşırdı. İçkiyə də çox meyilli idi. Dəfələrlə içib dava salmışdı. Hərənin xasiyyəti bir cürdür də. Ancaq son əməlini bağışlamaq olmaz”.

### Əsər əvvəl rus, sonra Azərbaycan dilində çap olunub

Bu hadisədən sonra uzun müddət yazıçının sevimli əsəri çapa verilmir, əlyazma şəklində qalır. Lakin onun təsadüfi görüşdüyü bir insan əsərin işıq üzü görməsinə yardımçı olur. Həm də Babanlının heç ağlına gəlməyən bir yolla: “Bir gün yolda təsadüfən Cəfər Xəndanla rastlaşdım. Ona problemimi danışdım və mənə məsləhət gördü ki, əsəri tərcümə etdirib Rusiyadakı jurnalların birinə göndərim. Mən əsəri hərfi tərcümə etdirib Rusiyaya göndərdim və oradan iki rus yazıçısının müsbət rəyi gəldi ki, əsəri çap etmək istəyirlər. Mən də razılıq verdim və bir ilə yaxın müddətdə əsər rus dilində çap olundu. Ondan sonra Azərbaycanda da əsərin çapına icazə verdilər”.

Vidadi Babanlı deyir ki, o zaman Yazıçılar Birliyində “KQB” agenti olanlar, söz gəzdirib ara qarışdıranlar da var idi ki, bu gün haqq dünyasındadırlar, heç yadda da qalmayıblar. “Ölünün arxasınca danışmaq günahdır”, deyib ağsaqqal yazıçı yaşadığı dövrün sirlərini bizə açmaqdan imtina edir: “ O insanların istedadı yazı yazmağa çatmırdı, onun əvəzində söz gəzdirirdilər, ara vururdular. Əsərlər haqqında mənfi rəy yaradırdılar. Beləleri var idi. İndi adları-sanları da yoxdur, çoxdan unudulublar. Yüzlərlə insan gəlmişdi Yazıçılar Birliyinə, onlardan 3-4 nəfər yadda qalıb indi. Bizim dövrün əsas qələm sahibləri İsmayıl Şıxlı, İsa Muğanna, Sabir Əhmədov, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Məmməd Araz idi. Yüzlərlə adamdan 7-8 nəfər qaldı ədəbiyyatda”.

### “Neçə dəfə yubileyim keçirildi, lakin ”Xalq yazıçısı" adı verilmədi"

89 yaşlı yazıçını narahat edən məqamlardan biri də ona hələ də xalq yazıçısı adı verilməməsidir. Bunun səbəbini isə bilmir: “Görünür, mənim xarakterim, ya xasiyyətim xoşlarına gəlmir. Ona görə mənə heç bir ad verilməyib. Mən yaltaq və riyakar deyiləm, mədhiyyəçi deyiləm. Sözü üzə deyirəm və arxadan danışmıram. Görünür, bu xarakterimə görə mənə o adı vermədilər. Mənim 6 romanım var, ”Vicdan susanda", “Müqəddəs ocaq”, “Gizlinlər”, “Ömürlük cəfa”, “Gecikmiş məhəbbət” və sonuncu “Zəmanə adamı”. 5 povestim var. Mənə nə üçün bu adın verilmədiyini deyə bilmirəm".

### “Anarın yerində mən olsaydım, o vəzifədən imtina edərdim”

AYB haqqında danışan yazıçı həmkarı Anarın uzun müddət AYB sədri postunda qalması ilə bağlı narazılığa da münasibət göstərdi: “Anarla mənim elə də yaxın münasibətlərimiz olmayıb. Yalnız keçən il yoldaşım vəfat edəndə zəng edib başsağlığı verdi, 1000 manat da AYB-nin fondundan yardım elədi. Ancaq onun haqqında da çox danışırlar ki, uzun müddətdir vəzifədədir. Onun yerində mən olsaydım, sədrlikdən imtina edərdim. Deyərdim, alın, bu, siz, bu da vəzifəniz. Gedib özüm üçün yaradıcılıqla məşğul olardım”.

Vidadi Babanlıya müasir yazarlar haqqında da sual verdim. Lakin son illər gözləri zəiflədiyinə görə mütaliə edə bilmədiyi üçün heç kim haqqında rəy verə bilməyəcəyini dedi. Onu da dedi ki, bu gün onu həm yazıçı dostları, həm də oxucuları unudublar. Heç kim zəng edib maraqlanmır. Ayağı yer tutan vaxtı bütün AYB-nin tədbirlərində iştirak edib. Lakin indi deputat Nizami Cəfərovdan başqa onunla kimsə maraqlanmır: “Arada Mədəniyyət Nazirliyindən Ədalət Vəliyev zəng edir. Nə bir məmur, nə bir vəzifəli şəxs maraqlanmır. Mənim bu qədər yubileylərim oldu. Nə 70 illiyimdə, nə 80 illiyimdə mənə ad verildi. İndi üzümüzə gələn yanvar ayında, sağlıq olsa, 90 illik yubileyim olacaq. Kimlərsə yəqin mənim əleyhimə işləyir ki, bu ad verilmir. Səbəb paxıllıqdır. Mənim 45 kitabım çıxıb, neçə dilə tərcümə olunub. Türkiyədə, İranda, Rusiyada çap olunuram. İndi ”Zəmanə adamı" adında bir əsər yazmışam. Həmin paxılların, yaltaqların simasını orada Əfsun Zamanlı obrazı ilə vermişəm".



Sonda yazıçı qələm əhli kimi bizə də uğurlar arzulayır, tövsiyələrini verir. Deyir ki, çalışın həmişə düz yazın. Ədalətli olun və xalqa xidmət edin. Çünki, kim unutsa da, xalq öz qələm adamını unutmur.

❑ Nərgiz LİFTİYEVA
❑ Fotolar Məğrur Salmanov

# 5 yaşlı qızı ilə Bakını süpürən ananın acı hekayəsi

## "Ölümlü dünyadır, bizim qismətimizə düşən də budur..."

**Hər birimizin həyatı bir hekayədir. Bu hekayələr arasında şirin olanı da var, acı olanı da. Aramızda elələri var ki, onların bütün ömürləri çətinliklərlə, porblemlərlə, sıxıntılarla doludur...**

Elə həyatı dərk edəndən yalnız çarəsizlik, imkansızlıqla, problemlərlə üz-üzə qalanlardan biri də Afət Bağırovadır. Onu hər gün yol kənarlarını süpürərkən görürük. 32 yaşı var, amma yaşadıqları, gördüyü çətinliklər onun yaşını da, başını da çoxdan aşıb. O, bu günədək yaşadığı həyatın yalnız acı tərəfini görüb. Ailə həyatı qurduqdan sonra bəlkə daha rahat həyat yaşayacağı ümidi də puç olub.

Hər gün paytaxt küçələrində gördüyümüz onlarla süpürgəçilərdən biri olan bu qadının həyat hekayəsini öyrənməyimizin səbəbi başqadır. O, tək deyil, azyaşlı qızı da daima onun yanındadır. Soyuqda, küləkdə...

Heydər Əliyev prospektində yol kənarını süpürən bu qadının bir neçə metrliyində bir qız uşağı oynayır. Onun kim olduğu ilə maraqlanarkən öyrəndik ki, bu uşaq Afət xanımın kiçik övladı 5 yaşlı Ülkərdir.

5 yaşlı qızcığazın anasının yanında niyə olduğunu yəqin ki, təxmin etdiniz. Məcburiyyət...

Əslən Cəlilabaddan olan Afət Bağırovanın rəsmi nikahı var və həyat yoldaşı da sağdır. Lakin atası uşaqlarına lazım olan diqqət və qayğını göstərmir. Bir müddət əvvəl də məhkumluq həyatı yaşayan həyat yoldaşının bu laqeyd münasibəti ilə barışan qadın övladlarını tək böyütmək üçün çalışır. Ülkərdən başqa Afət xanımın 8 yaşlı Qismət adlı oğlu da var. O da birinci sinifdə oxuyur.

Qismətin 8 yaşında birinci sinifdə oxumasının səbəbini müsahibimiz onu məktəbə vaxtında qoya bilməməsi ilə izah edir. "Nə qədər çalışdımsa, olmadı. Oğlumu vaxtında məktəbə qoya bilmədim. İndi də qızımın 5 yaşı tamam olub. O da məktəbə gedəcək. Çalışıram qızımı vaxtında məktəbə göndərim. Tək özüm işləyirəm. Həm də kirayədə yaşayırıq"- deyə, Afət xanım həyat hekayəsini bizimlə bölüşməyə başlayır.





***- İndi harada yaşayırsınız?***

- "Sovetski"də kirayədə yaşayırıq.

***- Öz eviniz olmayıbmı?***

- İndi kirayədə yaşadığım evin həyətində öz evimiz var idi. Həyat yoldaşım həbsdə olanda qaynımgil evi öz adlarına keçirdilər. Ev qayınatamın idi. Biz həmin evdə yaşayırdıq. Evdən çıxmağa məcbur olduq. 100 manata kirayədə yaşayırıq.

***- Həyat yoldaşınız niyə həbs olunmuşdu?***

- Dava eləmişdi. Tutuldu və bir neçə il həbsdə yatdı.

***- Bəs, ailənizdən sizə kömək edən varmı? Qayınlarınız sizi necə çölə atdı?***

- İndi hamı ancaq özünü dolandıra bilir. Atam bizi atıb gedib. Anam qardaşımla birgə yaşayır. Qardaşım da fəhlə adamdır. Öz ailəsinə ancaq baxır. Qayınatamın evi "Sovetski"də plana düşüb. Qaynım deyir ki, ev sökülində sənin uşaqlarına da kömək edəcəm.

***- Yoldaşınız heç sizi görməyə gəlirmi?***

- Daha çox rayonda olur. Hərdən iş olanda Bakıya gəlir. Pulu olanda uşaqlar üçün nəsə alır, kömək edir.

***- Bəs, uşaqlara necə baxırsınız?***

- Oğlum tezdən məktəbə gedir. Axşamdan yeməyini, çantasını hazırlayıram. Özüm işə gəlirəm. O da məktəbə gedir. Qızım çox vaxt evdə qalır. Hərdən briqadirdən icazə alıb gedib qızımı yanıma gətirirəm ki, tək qalmasın. Buradan da bir yerdə evə gedirik. Oğlum evdə olanda bacısına baxır. Yumurta da bişirib verir. Tək qalanda qonşulardan xahiş edirəm ki, hərdən baxsınlar.

***- İş qrafikiniz necədir?***

- 6:30-da başlayır. 9-a qədər işləyirik. Sonra bir az fasilə olur. Yenidən 13:00-dək işləyirik. Sonra nahar olur. Fasilədən sonra da 15:30-adək işləyirik.

***- Siz haranı süpürürsünüz?***

- Bu ərazi mənimdir. ("Koroğlu" metrostansiyasının yanından bir neçə yüz metrlik məsafəni göstərir- İ.M). Gün ərzində eyni ərazini süpürürəm.

***- Nə qədər maaş alırsınız?***

- 240 manat.

***- Elə bunun 100 manatını kirayəyə verirsiniz. Bir uşağınız məktəbdə oxuyur. Necə çatdırırsınız? Başqa sizə kömək edən varmı?***

- Yox. Elə bu maaşla dolanmağa, yaşamağa çalışırıq. Günü yola veririk. Buna yaşamaq deyirlərsə, yaşayırıq. Uşaqlar üçün yaşamaq lazımdır.

***- İstirahət və ya bayram gününüz olurmu?***

- Yox. Bizə nə bayram var, nə də istirahət günü. Mən indi məzuniyyətdəyəm. Sənədə də qol çəkmişəm. Amma işləməliyəm. İndi mənimlə birlikdə işləyən daha 5 nəfər məzuniyyətdədir, guya. Ancaq hamımızı işə çıxarırlar. İşləməsək qovarlar.

***- Bəs bayram günlərində, məzuniyyətdə işlədiyiniz üçün əlavə maaş verirlərmi?***

- Bayramlar iş günü sayılmır. Ancaq biz işə çıxırıq. Rəsmi olaraq iş günü olmadığından gündəlik maaş hesablanmır. Məzuniyyət pulu da yoxdur. Hələ məzuniyyət adı ilə aldığımız maaş digər aylardan 20 manat aşağı olur. Mən bu ay 220 manat alacam.

***- Novruz bayramında da işlədinz?***

- Hə. Bir saat belə tez buraxmadılar.

***- Bütün rayonlarda belədir, yoxsa ancaq sizdə?***

- Sabunçu rayonunda belə deyil. Süpürgəçilər məzuniyyət vaxtı işləmirlər. Ancaq bizdə işlədirlər.

***- İş vaxtı sizi yoxlayan olurmu? Gəlib işinizə baxırlarmı?***

- Briqadir maşınla gəlib əraziyə baxır.

Onların bu qədər çarəsizliyi, qarşılaşdıqları haqsızlıqlar qarşısında söz tapmaq çətindir. Afət xanımla söhbət edərkən bizə yaxınlaşan digər süpürgəçi söhbətə qoşulur və kim olduğumuzu soruşur.

Afət xanımın iş yoldaşı olan bu xanım deyir ki, onlar bu çətinliklərə çoxdan öyrəşiblər: "Bu bizim həyatımızdır. Biz həyatımızla barışmışıq".

Söhbətə Afət xanım davam edir: "Bizim də qismətimiz budur. Sabah başımıza nə gələcək bilmək olmaz. Bir neçə gün əvvəl iş yoldaşlarımızdan biri oturduğu yerdə öldü. Bilmədik nə baş verdi. İşini görəndən sonra yol kənarında oturub. Deyirlər ki, ürək tutmasından ölüb. Yəni, ölümlü dünyadır, bizim qismətimizə düşən də budur".

Bizim üçün kənardan dəhşətli görünən bu həyatı yaşayanlar onlardır. Dinlədikcə təəccübləndiyimizi görürlər. Sağollaşarkən gülümsəməyi unutmurlar. Onlar böyük insanlardır...

❑ **İlkin MURADOV**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

*** Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
*** Cinsi marağın** və **cinsi aktların** azalması
*** Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
*** Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
*** Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
*** Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
*** Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
*** Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
*** Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
*** Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
*** Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
*** Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
*** Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
*** Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
*** Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
*** Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
*** Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99

YENİ MÜSAVAT
N 70 (6391) 4 aprel 2016

# Yaz gəldi, "Xoş gəldin, depressiya!"

## Yaz fəslinin məşhur "qəhrəman"ına necə tutuluruq, ondan necə xilas olmaq mümkündür?

**Bu günlərdə ətrafınızda narazı, depressiv əhvalda insanlar çoxdurmu? Bu, klassikadır. Yaz depressiyasının əlamətləri isə bilinəndir. Depressiya geniş yayılmış və artmaqda davam edən xəstəlikdir.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə, 2020-ci ildə depressiya insanların əmək qabiliyyətini itirməsinə səbəb kimi ürək-damar xəstəliklərindən sonra ikinci yeri tutacaq. Ən acınacaqlı məqam isə odur ki, insanlar bu xəstəliyə ən fəal yaş dövrlərində - 25-50 yaşlarında tutulurlar və onlarda suisidə meyllilik, iş qabiliyyətinin aşağı düşməsi, əlillik və s. kimi fəsadlar özünü göstərir. Depressiya bu gün sosial problemə çevrilib.

Rəsmi statistik məlumatlara görə, dünya əhalisinin 110 milyon nəfərdən çoxu depressiyadan əziyyət çəkir. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata görə isə, real rəqəm bundan 3 dəfə çoxdur. Hesablamalar göstərir ki, ümumi profilli klinikalara müraciət edənlərin 40 faizə qədəri depressiyalı xəstələrdir. Onların isə cəmi 10-15 faizinə düzgün diaqnoz qoyulur. Depressiyadan əziyyət çəkən insanların, demək olar, yarısı isə həkimə müraciət etmir. Məhz bu səbəbdən fəsadlaşmış, xroniki hala keçmiş, somatik formalarda üzə çıxan depressiyalar artır.

**Yaz və payız depressiyası - fəsillər qədər fərqli...**

Mövsümi depressiyalar arasında payız və yaz depressiyaları xüsusi yer tutur. Mütəxəssislər deyir ki, payız və yaz depressiyasının fərqi ondadır ki, payız zamanı insanda daha çox yorulma, zövq almamaq, istəksizlik halları müşahidə olunsa da, yaz depressiyası zamanı əsəbilik, tez qıcıqlanma, aqressivlik, işə getməkdən imtina kimi əlamətlər qeyd olunur. Amma bunlara mövsüm depressiyası demək üçün ən azı 2 il eyni hallar bir insanda təkrarlanmalıdır ki, bu diaqnoz təsdiqlənsin. Və digər vacib məqamlardan biri də yaz depressiyası əlamətləri 2 həftədən çox davam edirsə, müalicə almaq lazımdır. Çünki bəzi hallarda qalıcı ola bilər.

Mütəxəssislər eyni zamanda qeyd edir ki, depressiyaya səbəb kimi günəş şüalarının təsirindən orqanizmdə yaranan melatonin hormunu miqdarında olan dəyişikliklədir ki, bu hormon insanın əhval-ruhiyyəsini tənzimləyir. Digər hormon isə "xöşbəxtlik hormonu" adlandırılıan serotonin maddəsidir ki, mövsüm depressiyalarında bu hormonun rolu mövcuddur.

**Davamlı halsızlıq və yuxudan xilas ola bilməmə...**

Bahar mövsümü insanların psixoloji vəziyyətinə də təsir edir. Yazın gəlişi ilə yaranan hava dəyişikliyi nəticəsində bəzi insanları özlərini davamlı halsız hiss edir və yuxudan xilas ola bilmirlər. Yaz və payızda sıx rast gəlinən halsızlıq maddələr mübadiləsi ilə bağlıdır. Bu mövsümdə havada olan müsbət və mənfi yüklü ionlarla bağlı bəzi dəyişikliklər ortaya çıxır ki, bu vəziyyət bəzi insanlarda ruhi sıxıntılar və halsızlıq yaradır.



Belə vəziyyətlə qarşılaşmamaq üçün yaşadığınız yerin hava almasını təmin etmək, nizamlı yuxu saatlarını müəyyənləşdirmək, gündə 7-8 saat yatmağa çalışmaq, həftədə ən azı 2 gün açıq havada yerimək və ılıq duş qəbul etmək tövsiyə edilir. Gündə 2-3 litr su qəbul etmək yaz yorğunluğundan qorunmaq və immunitet sistemini gücləndirmək üçün vacibdir.

Yaz depressiyası adətən digər depressiyalara bənzər əlamətlər daşıyan bir xəstəlikdir, insanların kifayət qədər Günəş işığı almaması beyində bəzi kimyəvi maddələrin paylanmasını pozur. Əgər bu mövsümdə hansısa insan özünü yorğun, halsız, yuxusuz və bədbəxt hiss edirsə, bu artıq yaz depressiyasının əlamətidir. Yaz depressiyası baharda başlayan və hər il eyni vaxtlarda müşahidə edilən bir depressiya vəziyyətidir. Əlamətlərinə gəldikdə isə daim qayğı, yuxu pozuqluğu, əsəbilik, çəki itirmək, iştahsızlığın və ya əksinə artması kimi amillər yer alır. Bahar depressiyası yaşayan insanlar məktəbə və yaxud da işə getmək problemi yaşaya bilərlər. Bəzi əlamətlər iki həftədən çox davam etdiyi zaman mütəxəssisə müraciət etmək məsləhətdir. Çünki depressiya müalicə olunmadığı halda təkrarlama şansı arta bilər. Eyni zamanda həmin sıxıntıların başqa bir psixoloji xəstəliyin əlaməti olub-olmadığını da öyrənmək önəmlidir. Xüsusilə də ailədə psixoloji problemi olan başqa qohumlar varsa, daha diqqətli olmaq lazımdır.

**Maskalanmış depressiya da var**

Depressiya insanı həyatdan zövq almaqdan məhrum edən psixi haldır. Bu zaman insan keçirdiyi hisslərin səbəblərini dəqiq anlamır, özünü tənha, əlacsız, sanki qaranlıq bir boşluqda hiss edir. Ona elə gəlir ki, heç kim ona bu vəziyyətdən çıxmağa kömək edə bilməz. Depressiya zamanı insan ailəsindən, dostlarından uzaqlaşır, dünya ona qaranlıq, tutqun görünür, hətta bir vaxtlar sevdiyi işindən də zövq ala bilmir. Təfəkkürü dəyişir, özündə və başqalarında yalnız mənfi keyfiyyətləri görür, keçmişinə, bu gününə, sabahına çox pessimist yanaşır. Həm fiziki hərəkətliliyi, həm də beynində ideyalar, təşəbbüslər azalır, həyat o qədər mənasızlaşır ki, ən əzizi də onun üçün əhəmiyyətini itirir, ən böyük məqsədi gözündən düşür, əlçatmaz arzularının reallaşması onu sevindirmir.

Biz qarşımızda artıq bir neçə həftədir əhval-ruhiyyəsi aşağı olan, saçları daranmayan, özünə baxmayan, ağlayan adam görüb ona depressiya diaqnozu qoya bilərik. Amma depressiyanın elə formaları var ki, onlara sosial problemləri tam həll olunmuş, həyatın bütün aspektlərində uğur qazanmış adamlarda da rast gəlinir. Belə insanlarda depressiya maskalanmış formada özünü göstərir. Belə ki, onlar öz xarici görünüşlərinə fikir verirlər, çətinliklə də olsa, işlərini davam etdirirlər, ancaq həyatdan zövq almırlar və əksəriyyəti baş ağrısı, mədə-bağırsaq pozuntuları, ürək-damar xəstəlikləri, başgicəllənmə, cürbəcür vegetativ pozuntular donunda depressiyadan əziyyət çəkirlər.

**Xəstəlik varsa, ondan çıxış yolu da var...**

Depressiya varsa, ondan qorunma yolları da var. Qorunma yollarının başlıcası gecə yuxusuna diqqət etməkdir. Vaxtında yatıb, vaxtında oyanmaq lazımdır. Günümüzlə uzlaşan ideal yuxu saatı axşam 11-də yatıb, səhər 7-də oyanmaqdır. Açıq havada çox gəzmək, bacardıqca günəş şüaları altında olmaq və yüngül idman sizin yaxanızı bu, problemdən qurtara bilər. Bəzən dost-tanışların tövsiyə etdiyi isə spirtli və enerjili içkilərdir. Onlar düşünür ki, bu, problemdən çıxışa fayda verir. Amma tam tərsi, problem daha da ciddiləşir. Əvvəllər ciddi depressiyası olanlar, özlərinə qapalı xarakter tipində olanlar, B12 vitamin çatışmazlığı yaşayan insanlar fəsil dəyişikliyini daha çox orqanizmlərində hiss edirlər.

Problemi həll etmək üçün xəstənin hansı mövsümi depressiyadan əziyyət çəkdiyini nəzərə alaraq, həmin dövrlərdə ona müəyyən selektiv antidepressantlar vermək, xüsusi müalicə metodları tətbiq etmək, süni stresslər yaşatmaq lazımdır. Məsələn, belə insanlara iş yükünü artırmaları, həyat tərzini sürətləndirmələri, idmanla məşğul olmaları və s. məsləhətdir. Bunlar bəzən mövsümi depressiyaların yaranmasının və uzanmasının qarşısını alır.

Mövsümi depressiyalardan payız depressiyası yaz depressiyasından daha geniş yayılıb. Çünki Günəş işığı depressiya əleyhinə təsir edir, insanların əksəriyyəti də günəşi, işığı, istini sevir. Payızda isə günəşli günlər qısalır, tutqun, yağışlı havalar başlayır. Təbiət nisbətən gözəlliyini itirir. Boz, çiskinli hava bəzi insanların daxili psixoloji durumuna mənfi təsir göstərir. Bəzi insanlar deyirlər ki, Günəş batanda sanki mən də onunla bərabər batıram. Mən belə düşünən bir çox insanlarla rastlaşmışam. Bunu anlayan insan nə qədər ki depressiyaya düşməyib, bu vəziyyət onun işinə, əmək və əqli fəaliyyətinə, yaşam tərzinə, təhsilinə mane olmayıb, gərək özü üçün sevdiyi mühiti yaratsın. Belə insanlara payız fəslində daim evin pəncərələrində pərdələri bağlamaq, stol üstünə Günəşi xatırladan meyvələr - narıngi, portağal qoymaq məsləhətdir. Onlar gərək divan və yataq örtüklərinin, hətta paltarlarının rəngli olmasına fikir versinlər, musiqiyə qulaq assınlar, idmanla məşğul olsunlar, əhvalı yaxşılaşdıran qidalar qəbul etsinlər - balıq, şokolad yesinlər, kofe içsinlər və s. Əgər mövsümi depressiyanın müddəti uzanırsa, insanlar özlərini bu vəziyyətdən çıxara bilmirlərsə, o zaman həkimə müraciət etmələri məsləhətdir.

Maraqlıdır, insan öz-özünü depressiyadan çıxara bilərmi?

Araşdırmalar göstərir ki, bu, depressiyanın ağırlıq dərəcəsindən asılıdır. Ümumiyyətlə isə, depressiyadan ən yaxşı çıxış yolu insanlarla dostluq əlaqələri və canlı ünsiyyətdir. Canlı ünsiyyət qədər insana zövq verən, onu həyata bağlayan heç nə yoxdur. Bunu nə internet, nə virtual həyat tərzi əvəz edə bilməz. Bu gün depressiyaların artmasının bir səbəbi də canlı ünsiyyətin, qarşılıqlı münasibətlərin, görüşlərin azalmasıdır. İndi həyat çox rəsmiləşib, bizə ən yaxın olan insanlarla yalnız telefon, yaxud internet vasitəsilə əlaqə yaradırıq.

Amma bir çox hallarda yaz fəsli depressiya ilə yanaşı, bəzi xəstəliklərin də "düymə"sini basır. Yazda ən çox rast gəlinən problemlər içərisində ilk sırada allergiya yer alır. Statistikaya görə, dünyada hər 10 nəfərdən 2-si allergiyadan əziyyət çəkir. Hətta dünya alimləri XXI əsri "allergiya əsri" adlandırıblar.

Havada uçuşan polen adlanan çiçək tozları yaz mövsümündə allergik xəstəliklərə səbəb olan ən önəmli amillərdir. Onun ən çox təsir etdiyi orqanizm isə insanların gözləridir. Mövsümlə bağlı allergiya nəticəsində gözdə qaşınma, qızartı və reaksiyaya bağlı olaraq damar genişlənməsi meydana gəlir. Bu baxımdan şiddətli yanma, işığa baxa bilməmək, bulanıq görmə yaranır. Allergiya nəticəsində yaranan qaşınma bəzi adamlarda göz önündəki təbəqə olan korneanın quruluşunda pozulmalara səbəb olur ki, bunların da ən ciddisi isə görmə qabiliyyətinin pozulmasına yol açmasıdır. Nəticədə toxumalarda iltihablı şiş əmələ gəlir ki, bu da gözdə şişmə, qızarma, qaşıntı və sulanmaya səbəb olur.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

# Son səhifə

N 70 (6391) 4 aprel 2016



## Özü qocalır, beyni mükəmməlləşir

ABŞ-ın Maunt Sinay Tibb Məktəbinin əməkdaşları müəyyən ediblər ki, insan beyninin bəzi xüsusiyyətləri yaş ötdükcə daha da təkmilləşir. İndiyə qədər belə hesab olunurdu ki, əqli qabiliyyətlər insan 20 yaşında olarkən öz zirvə nöqtəsinə çatır. Tədqiqatın nəticələri isə göstərdi ki, yaşlı insanlarda belə uzunmüddətli yaddaş nəinki zəifləmir, hətta danışıq qabiliyyəti, emosional intellekt və sosial vərdişlər daha üstün səviyyədə olur. Bunu "Daily Telegraph"a istinadən "İzvestiya Nauki" xəbər verib. Qısamüddətli yaddaş, qazanılmış bacarıqlar və düşünmə qabiliyyətinə gəlincə isə, onlar zaman ötdükcə həqiqətən də zəifləyir.

Mütəxəssislərin kəşfi qocalma effektinin rezus-makaka meymunları üzərində öyrənilməsi nəticəsində əldə edilib. Müəyyən olunub ki, yaşlı meymunlarda beyin yeni biliklərin mənimsənilməsinə görə cavabdeh olan qəbuledici neyronların (sinir hüceyrələri) təqribən yarısını itirir. Bununla belə uzunmüddətli yaddaşa cavabdeh neyronlar toxunulmaz qalır.

Xatırladaq ki, yaxın zamanlarda Kaliforniyanın San-Diyeqo Universitetinin mütəxəssisləri yaşla qazanılan müdrikliyin olması faktına sübutlar tapıblar. Belə ki, alimlər yaşı 60-100 arasında olan 3000 kaliforniyalının beynini skanlaşdırdıqdan sonra müəyyən ediblər ki, yaş ötdükcə insanlar, həqiqətən də, daha da müdrikləşirlər.

# Qəhvə qadın orqanizmi üçün vacibdir



Amerikalı alimlər apardıqları araşdırmalar zamanı belə bir nəticəyə gəliblər ki, qəhvə qadın orqanizminin normal fəaliyyət göstərməsi üçün vacibdir. Təcrübələrdə 84 min qadın və 42 min kişi iştirak edib. Həkimlər onlar üzərində 25 il müşahidə aparıblar. Təcrübə göstərib ki, gün ərzində ən azı 2 fincan qəhvə içən qadınlar digərləri ilə müqayisədə 25 faiz az ürək xəstəliklərinə tutulurlar. Qəhvə sevənlər digərləri ilə müqayisədə 18 faiz az bu cür xəstəliklərdən dünyasını dəyişirlər. Qəhvənin müsbət təsir göstərmədiyi yeganə xəstəlik xərçəngdir. Bundan əlavə, qəhvədən müntəzəm olaraq istifadə erkən ölümə gətirib çıxarmır. Qəhvənin tərkibində ürək-damar sisteminin fəaliyyətini gücləndirən, astma riskini azaldan taninlər və antiturşular var.

# Narkotacirin kokainini qarət etdilər, polisə şikayət verdi

**Böyük Britaniyada 23 yaşlı kişini narkotik saxlamaq və yaymağa görə 2 il azadlıqdan məhrum ediblər. Bu barədə lenta.ru saytı xəbər verib. Xəbərdə bildirilir ki, bu həbs əslində, Daniel Barkerin öz təşəbbüsü ilə baş verib. Daniel polisə müraciət edərək, kokainlərinin oğurlanmasından şikayətlənib. Nəşrin xəbərinə görə, ötən ilin iyununda Karlayl şəhərinin parklarından birində iki nəfər Danielə hücum edərək, onu qarət ediblər. Kişi isə polisə müraciətində deyib ki, həmin iki nəfər onlara satmaq istədiyi kokaini oğurlayıb: "Britaniyalı baş vermiş qarətin detallarını xatırlaya bilməyib. Buna səbəb isə onun sərxoş vəziyyətdə olması idi", - deyə prokuror Jerar Rocerson açıqlayıb.**

Barker polisə ifadəsində onu da deyib ki, üstündə və evində xeyli narkotik var. Polislər onun çantasında dəyəri 88 min funt sterlinq olan üç qutu kokain aşkarlayıblar. Kişi dərhal həbs olunub. Bundan başqa, onu 200 saatlıq ictimai işə də cəlb ediblər.





## Ev heyvanı saxlayanlar gecələr rahat yatır

**Psixoloqlar ev heyvanlarının ruh sağlamlığı üçün əhəmiyyətli olduğunu qeyd edirlər. Uzun və yorucu iş günündən sonra evə gəldiyiniz zaman evdə hər hansı bir ev heyvanı ilə vaxt keçirmək bütün stress və yorğunluğu aradan qaldırır.**

Çində 25-40 yaş arası insanlar arasında aparılan araşdırmalar zamanı evində heyvan saxlayan insanların saxlamayanlara nisbətən özlərini daha rahat hiss etdikləri və daha rahat yatdıqları müəyyən olunub. Ev heyvanı deyərkən ağlımıza ilk it və pişik gəlir. Lakin bunlarla yanaşı bir sıra evdə saxlanılması mümkün olan heyvanlar var ki, onlar da müsbət enerjiyə malikdir. Məsələn, akvariumdakı balıqları seyr etmək əzələ gərginliyini aradan qaldırır, ürək döyüntülərini nizamlayır.

## Qoroskop




**QOÇ** - İş metodunuzda yenidənqurma aparmağa səy göstərin. Bununla siz gələcək perspektivlərinizə işıq saça bilərsiniz. Səmərəsiz iş prinsipindən qaçın. Saat 16-18 arası təzə xəbərlər gözlənilir.

**BUĞA** - Bir qədər gərgin gün yaşamalı olacaqsınız. Amma maraqsız proseslərə müdaxilə etməsəniz, bunun qarşısını az da olsa, ala biləcəksiniz. Əsəblərinizi qoruyun. Axşamsa qonaq gedin.

**ƏKİZLƏR** - İşgüzar görüşlər keçirmək üçün çox səmərəli vaxtdır. Ona görə də bütün enerji və diqqətinizi məhz bu istiqamətə yönəltməlisiniz. Maliyyə sövdələşmələrinə isə girişməyin.

**XƏRÇƏNG** - Ulduzların düzümü bu gün ixtiyarın daha çox öz əlinizdə olduğunu göstərir. Odur ki, riskdən və həyatınız üçün önəmli olmayan məsələlərdən uzaq durun. Məsləhətləşmələrdən yayınmayın.

**ŞİR** - Əgər sağlıq durumunuza diqqət yetirsəniz, gün ərzində hansısa xoşagəlməzliklə rastlaşmayacaqsınız. Günün ikinci yarısında aldığınız hər bir iş təklifinə razılıq verin.

**QIZ** - İlk növbədə sizə əsəb gətirən adamlardan uzaq olmalısınız. Yoxsa bu hal bütün maddi-mənəvi sərvətlərinizi tari-mar edəcək. Hər hansı risk yolverilməzdir. Günortadan sonranı sevgiyə həsr edin.

**TƏRƏZİ** - Ulduzlar taledən gileylənməyinizə heç bir əsas görmür. Çünki ixtiyarınızda olan bu təqvim sizə olduqca xoş ovqat bəxş edəcək. Məhəbbət amili isə başlıca xilas mənbəyinizə çevriləcək.

**ƏQRƏB** - Hər mənada əhəmiyyətli gündür. İstər fəaliyyət göstərdiyiniz sahələrdə, istərsə də qarşılıqlı münasibətlər zəminində uğurlarınız gözlənilir. Yalnız pulla bağlı qanqaraçılıq gözlənilir.

**OXATAN** - Fəaliyyət müstəvisində çox diqqətli olun. Əks təqdirdə yersiz mübahisələr, ifrat yorğunçuluq ovqatınızı korlaya bilər. Əsas enerjinizi ailə-sevgi münasibətlərinə yönəldin.

**OĞLAQ** - Axşam saat 18-ə qədər ümumi vəziyyət xeyrinizə olacaq. Nüfuzlu adamlarla bütün görüşləriniz müsbət nəticə verəcək. Sonrakı saatlarda isə doğmalarınızla bir yerdə olmağa çalışın.

**SUTÖKƏN** - Təxminən saat 13-ə qədər xoşagəlməz işlərə cəlb oluna bilərsiniz. Buna baxmayaraq, belə hallarda öz mənafelərinizi qorumalısınız. Nahardan sonra bəxtinizin gətirəcəyi gözlənilir.

**BALIQLAR** - Rastlaşacağınız hadisələr daha çox öz rəftar və gedişlərinizdən asılı olacaq. Belə bir ərəfədə hansısa risk uğursuzdur. Planınızda varsa, bu gün mütləq səfərə çıxın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Onlar makiyaja bu qədər pul xərcləyir



Türkiyədə keçirilən bir araşdırmaya görə, qadınlar makiyaj materiallarına ay ərzində bizim pulla hesabladıqda 25-30 manat xərcləyir. Maddi durumu nisbətən yüksək olan qadınların makiyaj xərci isə 35 manat təşkil edir. Ən az pul xərcləyənlər isə 18 - 24 yaş arası gənc qızlardır ki, onların da aylıq makiyaj büdcəsi 21 manatdır. Araşdırma zamanı o da üzə çıxıb ki, makiyaj materiallarından istifadə edən qadınların 75 faizi bunları mağazadan almaq istəyir. 35 faiz isə makiyaj alış-verişini kataloqlardan etməyə üstünlük verir. Sonuncunu daha çox gənc kateqoriya tərcih edir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.